Press Klub

BAKI MƏTBUAT KLUBU

# Jurnalist məsuliyyəti

## Dünya Mətbuat şuralarının təcrübəsi

Bakı - 2002

**Jurnalist məsuliyyəti** (Dünya Mətbuat şuralarının təcrübəsi). "Yeni Nəsil" MMC, Bakı 2002, 72 səhifə.

Bu kitabın nəşri Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf üzrə Agentliyinin (BİA) ayırdığı vəsait hesabına Avrasiya Fondu tərəfindən maliyyələşdirilib. Müəlliflərin mövqeyi BİA-nin və Avrasiya Fondunun mövqeyinə uyğun gəlməyə bilər.

© Bakı Mətbuat Klubu

# *Mündəricat*

**Azərbaycan Mətbuat Şurası** (layihədən çıxarış)..............**5-12**

**Mətbuatın özünütənzimləmə sisteminin idarə edilməsi**..............**13-20**
Etik Normalar Kodeksi..............13
Büdcə..............14
Katiblik..............15
Şikayətlər..............16
Şikayətin qəbul edilməməsi və ya geri qaytarılması..............16
Katibliyin şikayətə dair əlavə informasiya tələb etməsi..........16
İcraçı katibin vasitəçiliyi və yaxud şikayətin geri çağırılması..............17
Qərarlar..............18
Etiraz..............19
Qərarların dərc olunması..............19

**Demokratik ölkələrdə mətbuatın özünütənzimləmə mexanizmləri**..............**21-43**
Avstraliya Mətbuat Şurası..............21
Avstriya Mətbuat Şurası..............25
Kanada Mətbuat Şurası..............26
Almaniya Mətbuat Şurası..............29
Niderland Mətbuat Şurası..............30
Norveç Mətbuat Şurası..............32
Böyük Britaniyanın mətbuatdan şikayətlər üzrə Komissiyası..............34
İsveç Mətbuat Şurası..............36
Demokratik ölkələrdə mətbuatın özünütənzimləmə mexanizmlərinin müqayisəli təhlili..............39

**Mətbuat şurasının kütləvi informasiya vasitələrinin məsuliyyət sistemində rolu**............44-59
Məsuliyyət............45
Şimali Amerikada mətbuat şuraları............47
KİV-nin məsuliyyəti Kvebekin timsalında............49
Kvebek Mətbuat Şurası............50
Nəticələr............57

**Türkiyə Mətbuat Şurası**............59-63

**Azərbaycan jurnalistlərinin peşə etikası kodeksi**............64-68

**Mətbuat şurasının yaradılmasına dair dəyirmi masanın (protokolundan çıxarış)**............69-70



# AZƏRBAYCAN MƏTBUAT ŞURASI

*(Şuranın yaradılması layihəsindən çıxarış)*

Demokratik ölkələrin əksəriyyətində kütləvi informasiya vasitələrinin özünüidarəetmə mexanizminin əsasını həmin ölkələrdə uğurla fəaliyyət göstərən **MƏTBUAT ŞURALARI** təşkil edir. Layihənin əsas məqsədi Azərbaycanda da bu cür qurumun yaradılmasıdır. Azərbaycanın Mətbuat Şurası aşağıdakı mühüm vəzifələrin həyata keçirilməsinə xidmət edəcək:

**1. Jurnalistikada peşəkarlıq standartlarının yüksəldilməsi və onların müdafiəsi.**

Mətbuat Şurasının Professional Etik Məcəllənin müəyyənləşdirdiyi standartların yerinə yetirilməsinə nəzarət mexanizmi olacaq. Məcəllə Mətbuat Şurasının (MŞ) bütün təsisçiləri - üzvləri tərəfindən imzalanacaq. Şuranın xüsusi Komissiyası Məcəllənin tələblərinin pozulması hallarına dair şikayətlərə baxacaq və ayrılıqda hər belə müraciət üzrə qərar çıxaracaq (bu, hər hansı bir vətəndaşın, hüquqi şəxsin şikayəti və ya jurnalist kollektivinin müraciəti ilə ola bilər). Qəbul edilmiş qərar ilk növbədə cavabdehin özü tərəfindən dərc edilməklə ictimaiyyətə çatdırılacaq. MŞ yaradılarkən təsisçilərin bir-birləri qarşısında öz üzərlərinə müvafiq öhdəliklər götürmələri, həmçinin qərar çıxaracaq Komissiya üzvlərinin cəmiyyətdə yüksək nüfuza malik olmaları KİV-nin bu mühüm prinsiplərə hörmət edəcəklərinə zəmanət verəcək.

**2. İctimai maraqların müdafiəsi, mətbuatın maraqlarının və ictimai maraqların balanslaşdırılması.**

Mətbuat Şurasının tərkibi bərabər sayda nüfuzlu jurnalist təşkilatlarının (birliklər, redaksiyalar) nümayəndələrindən və yüksək nüfuzlu ictimai xadimlərdən ibarət olacaq. Bu iki kateqoriyaya mənsub olan şəxslərin vahid qurum çərçivəsində fəaliyyət göstərməsi ictimai maraqlarla mətbuatın

maraqlarının tarazlaşdırılmasını və qərarların məhz bu əsasda çıxarılmasını təmin edəcək. MŞ-nın qərarlarının hüquq normalarına uyğun olmasını təmin etmək üçün isə onun işinə səriştəli, tanınmış hüquqşünaslar cəlb ediləcəklər.

**3. Vətəndaş cəmiyyətinin inkişafı, azad sözün müdafiəsi.**

MŞ öz nüfuzundan və səlahiyyətlərindən istifadə edərək, vətəndaşlar və mətbuat, təşkilatlar və media arasında yaranmış münaqişələrin məhkəməyəqədər həlli instansiyası rolunu oynayacaq. Bu, müxtəlif institutların, o cümlədən hökumət orqanlarının mətbuatın işlərinə müdaxilə imkanlarını azaldacaq, bu məqsədlə məhkəmələrdən mətbuata təzyiq vasitəsi kimi istifadə hallarını məhdudlaşdıracaq, beləliklə söz azadlığı prinsipinin ictimai müdafiəsini təmin edəcək. İctimaiyyətin Şurada təmsil olunmuş görkəmli və etibarlı nümayəndələrinin mətbuat və söz azadlığına dair mübahisəli problemlərlə bağlı qərar çıxarma prosesində bilavasitə iştirakı ölkədə vətəndaş cəmiyyətinin bərqərar olması işini sürətləndirəcək.

**4. Jurnalistlərin sosial məsuliyyətinin artması, vətəndaş hüquqlarının təminatı.**

Mətbuat Şurası KİV və media nümayəndələri tərəfindən mənafelərinə toxunulmuş vətəndaşların hüquqlarının müdafiəsi prosesini yüngülləşdirəcək, ucuzlaşdıracaq və tezləşdirəcək. Mətbuatın özünüidarəetmə sisteminin yaradılması həmçinin jurnalistlərin sosial məsuliyyətini artıracaq. Şura öz növbəsində hər hansı qurupun söz azadlığını monopoliyaya götürmək cəhdlərinin qarşısını alacaq, fikir plüralizmi prinsipini müdafiə edəcək.

## LAYİHƏNİN HƏYATA KEÇİRİLMƏSİNİN İŞ PLANI

Bakı Mətbuat Klubu yuxarıda qeyd olunan istiqamətdə artıq müəyyən işlər görüb. Şura üçün layihə rolunu oynaya biləcək Peşə Etikası Kodeksi yaradılıb, Redaktorlar Birliyinin fəaliyyəti təmin olunub, mətbuatın özünütənzimləmə problemlərinə dair bir sıra tədbirlər, o cümlədən beynəlxalq seminarlar keçirilib, yerli jurnalist təşkilatları ilə mühüm anlaşmalar əldə edilib, bu prosesin sürətlənməsinə yardım göstərə biləcək bir çox beynəlxalq qurumlarla əməkdaşlıq barədə razılığa gəlinib. Beləliklə, **Mətbuat Şurasının** formalaşması üçün baza yaradılıb. Bu işin uğurla başa çatması üçün isə ilin sonunadək aşağıdakı təşkilati işlərin görülməsi nəzərdə tutulub:

**1. KİV rəhbərlərinin və jurnalist təşkilatlarının iştirakı ilə dəyirmi masalar.**

KİV nümayəndələrinin və jurnalist təşkilatlarının ən azı 50 nümayəndəsinin iştirakı ilə üç dəyirmi masa planlaşdırılıb. Bu ilin aprel ayının sonunda 63 nəşrin və jurnalist qurumunun iştirakı ilə artıq birinci belə tədbir uğurla keçirilib. (Onun mövzusu və nəticəsi ilə kitabın "Əlavələr" fəslində verilmiş protokoldan çıxarışda tanış ola bilərsiniz). Növbəti iki dəyirmi masa aşağıdakı mövzulara həsr olunacaq:

*- MŞ mətbuat üzrə "ictimai ombudsman" rolunda. KİV-nin Mətbuat Şurası qarşısında öhdəlikləri. Həmin öhdəliklərin yerinə yetiriləcəyinə zəmanət verən şərtlər. MŞ-nın Şikayətlər üzrə Komissiyası və onun tərkibinin formalaşdırılması prinsipləri.*

*- MŞ-nın Nizamnaməsinin əsas bəndlərinin və onun iş reqlamentinin müzakirəsi və razılaşdırılması. Jurnalistlərin I ölkə forumuna hazırlıq.*

**2. Mətbuat Şurasının potensial üzvləri üçün seminarlar.**

Əgər dəyirmi masalar MŞ-nı yaradacaq və onun hüquq və vəzifələrini müəyyənləşdirəcək təsisçilər üçün nəzərdə tutulubsa, seminarlar həmin hüquq və vəzifələri birbaşa yerinə yetirməli olacaq şəxslər (Komissiya üzvləri, ştatlı əməkdaşlar, ekspertlər) üçün təşkil olunacaq.

Üç belə seminarın keçirilməsi nəzərdə tutulur. Seminarlarda Komissiyada üzvlüyə 30 potensial namizəd (15 jurnalist və 15 jurnalist peşəsinə aidiyyatı olmayan ictimaiyyət nümayəndəsi) iştirak edəcək. İştirakçıların seçilmə qaydası aşağıdakı kimi olacaq: KİV rəhbərlərinin ikinci dəyirmi masası ərəfəsində redaksiyalara və jurnalist təşkilatlarına gələcək

MŞ-na öz potensial namizədlərini təqdim etmək təklif olunacaq. Sonra bütün təkliflər ümumiləşdiriləcək və dəyirmi masanın sonunda siyahı gizli səsverməyə çıxarılacaq. Daha çox səs toplamış namizədlər (yuxarıda göstərilən proporsiya gözənilməklə) bu seminarlara dəvət ediləcəklər.

Seminarların məqsədi potensial Şura üzvlərini Qərbdə fəaliyyət göstərən analoji strukturların işi ilə tanış etmək, onlara bu sahədə lazım olan məlumat və materialları verməkdir. İlk iki seminarı demokratik ölkələrin Mətbuat Şuralarının işi ilə yaxından tanış olan mütəxəssislər keçirəcəklər (bu tədbirlərdə həmçinin beynəlxalq ekspertlərin iştirakı barədə də danışıqlar aparılır. Məsələn, ilk seminara Almaniya Mətbuat Şurasının sədri dəvət olunmuşdur). Sonuncu seminarı isə 85 il öncə Avropada ilk MŞ-nın yarandığı ölkədən - İsveçdən dəvət olunmuş mütəxəssis (İsveç Mətbuat Şurasının baş məsləhətçisi) aparacaq.

**Seminarlar aşağıdakı mövzulara həsr olunacaq:**

1. Mətbuat Şuralarının iş mexanizmi, onların strukturu, səlahiyyətləri, reqlamenti.
2. Özünütənzimləmə orqanı və mübahisəli məsələlərin məhkəməyəqədər həlli instansiyası kimi MŞ-nın fəaliyyət strategiyası. Mətbuat Şuralarının qərarlarının ictimai əhəmiyyəti, hüquqi qüvvəsi və doğurduğu mənəvi məsuliyyət.
3. Vətəndaşlardan, ictimai və dövlət təşkilatlarından, KİV-dən şikayətlərin qəbulu və onlara baxılma qaydaları: münaqişəli vəziyyətlərin müstəqil təhqiqatının aparılması, MŞ-nın qərarlarının ictimaiyyətə çatdırılması.

**3. Beynəlxalq konfranslar**

Layihə çərçivəsində dörd beynəlxalq konfransın keçirilməsi nəzərdə tutulmuşdu. Bunlardan birincisi may ayının 29-30-da Avropa Şurası ilə birlikdə təşkil edildi və daha çox Mətbuat Şuralarının fəaliyyətinin nəzəri əsaslarına, hüquqi-əxlaqi (peşə əxlaqı nəzərdə tutulur) aspektlərinə həsr olundu. İyun ayının 8-9-da Avropa Şurası, ARTICLE XIX təşkilatı, N.Nəcəfov adına Maarifçilik və Xeyriyyəçilik Fondu, "Turan" İnformasiya Agentliyi və "Yeni Nəsil" AJB tərəfindən





təşkil olunmuş ikinci ikigünlük konfransda praktiki məsələlər (o cümlədən məhkəmə praktikası) təhlil edildi, şərəf və ləyaqət, şəxsi həyatın toxunulmazlığı, bilmədən buraxılan səhv və qərəzli böhtan kimi anlayışlar araşdırıldı. İyul ayının 3-4-də isə Bakıda NATO-nun, Silahlı Qüvvələr Üzərində Demokratik Nəzarət Mərkəzinin (Cenevrə) və Bakı Mətbuat Klubunun daha bir beynəlxalq konfransı təşkil edildi. Həmin konfrans təhlükəsizlik sistemi üzərində mətbuatın nəzarəti, həmçinin mətbuatın dövlət sirrini, hərbi sirri yaymamaq vəzifəsi ilə ictimai mənafeləri qorumaq kimi mühüm vəzifəsinin uzlaşdırılması problemlərinə həsr olundu (təcrübə göstərir ki, Mətbuat Şuraları iş prosesində belə problemlərlə də tez-tez üzləşməli olurlar).

**4. Mətbuat Şurasına dair iki kitabın nəşri.**

Bu kitablar KİV rəhbərlərində, jurnalist təşkilatlarında, habelə bütünlüklə ictimaiyyətdə Mətbuat Şuralarının əhəmiyyəti, fəaliyyət prinsipləri haqqında hərtərəfli anlayış yaratmağa xidmət edəcəkdir. Hazırda Sizə təqdim olunmuş ilk kitabda MŞ-nın məqsəd və vəzifələri, strukturu və s. məsələlər aydınlaşdırılır, onların iş qaydaları və prinsiplərinin müqayisəli təhlili verilir. İkinci kitabda isə son iyirmi ildə xarici ölkələrdə bu qurumlar tərəfindən baxılmış ən maraqlı işlər haqqında məlumatlar, ən əhəmiyyətli qərarlardan çıxarışlar toplanacaqdır. Hər kitab 1000 nüsxədə dərc olunacaq və KİV redaksiyalarına, dövlət orqanlarına, ictimai təşkilatlara, jurnalistika fakültələrinə və s. pulsuz olaraq paylanacaqdır.

**5. Mətbuat Şurasının rəmzi proseslərinin keçirilməsi və televiziya ilə nümayişi.**

Bu proseslər vətəndaşların və ya KİV-nin real müraciətləri əsasında təşkil olunacaq. Onların təşəbbüskarları layihənin müəllifləri olacaqlar. Bir müraciət ictimai təşkilat və ya vətəndaş tərəfindən, ikincisi isə KİV-nin özləri tərəfindən veriləcək. Şikayətlərin təhqiqatı və müzakirəsi MŞ-nın potensial üzvləri olan seminar iştirakçıları tərəfindən aparılacaq, müraciətlər üzrə konkret qərarlar çıxarılacaq. "İnternyus" təşkilatının köməyi ilə proseslərin gedişini

işıqlandıran verilişlər hazırlanıb televiziya ilə ən geniş auditoriya qarşısında nümayiş etdiriləcək.

Bu, MŞ-nın məqsəd və vəzifələrinin dərindən açıqlanmasına xidmət göstərəcək, onun haqqında geniş məlumatın yayılmasına və ideyanın daha da populyarlaşdırılmasına yardım edəcək.

**6. MŞ-nın təsis sənədlərinin və reqlamentinin hazırlanması.**

MŞK-nın təsis sənədləri (təsis müqaviləsi, nizamnaməsi) və iş reqlamenti xarici mətbuat şuralarının normativ sənədləri, yerli hüquqşünasların, ictimai xadimlərin və jurnalist təşkilatlarının rəyləri əsasında hazırlanacaq. Bu zaman öz tarixi ənənələri və ictimai münasibətlərinə görə bizə daha yaxın olan Türkiyənin, habelə böyük uğurla fəaliyyət göstərən İsveç, Almaniya, Danimarka və Avstraliyanın MŞ-nın nizamnamələrinə istinad ediləcək. MŞ-nın təsis sənədlərinin layihəsi onun potensial üzvlərinin iştirakı ilə sonuncu dəyirmi masada müzakirə ediləcək. Sonra hüquqşünaslarla birlikdə nizamnamənin və reqlamentin son variantı hazırlanıb Azərbaycan Jurnalistlərinin I Forumunun müzakirəsinə çıxarılacaq və orada qəbul ediləcək.

**7. Jurnalistlərin forumunun keçirilməsi.**

Forum bu layihə üzrə həyata keçirilən son tədbir olacaq. Forumda MŞ-nın yaradılması ideyasını dəstəkləyən KİV-nin və media təşkilatlarının geniş spektri, ictimaiyyətin nüfuzlu nümayəndələri iştirak edəcək. Burada mətbuatın özünüidarəetmə mexanizminin əsasını təşkil edəcək MŞ-nın bütün təsisçi-üzvlərinin onun qərarlarını könüllü surətdə yerinə yetirəcəkləri barədə razılığın imzalanması nəzərdə tutulur. Forumda 500 jurnalistin iştirakı gözlənilir. KİV-nin və jurnalist təşkilatlarının forumda təmsilçilik forması, həmçinin forumun gündəliyi son dəyirmi masada müəyyən olunacaq.

**Forumun iştirakçıları üç kateqoriyaya bölünəcək:**

- *Həlledici səs hüququ ilə*. Bu iştirakçılar MŞ-nın təsisçi-üzvləri olan KİV və jurnalist təşkilatlarını təmsil edəcəklər.
- *Müşahidəçilər* ilk mərhələdə MŞ-nın yaradılmasında iştirak





etməyəcək və onun qərarlarını könüllü surətdə icra etmək barədə razılığı imzalamayacaq jurnalist kollektivlərini təmsil edəcəklər.
- *Qonaqlar* (Tanınmış ictimai və siyasi xadimlər, dövlət və qeyri-dövlət təşkilatlarının, beynəlxalq qurumların nümayəndələri).

Forumda Azərbaycan jurnalistikasının hazırkı durumu və onun inkişaf perspektivləri, ictimai əməkdaşlıq sistemində KİV-nin yeri, mass-medianın ictimai funksiyası, mətbuatın özünüidarəetmə mexanizmi, MŞ-nın yaradılması, onun reqlamentinin müəyyənləşdirilməsi və Şura üzvlərinin seçilməsi kimi məsələlər müzakirə olunacaq.

## LAYİHƏDƏ NƏZƏRDƏ TUTULMUŞ TƏDBİRLƏRİN İCRA QRAFİKİ

| Tədbirin Adı | *Layihənin icra ayları** | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| Təşkilati tədbirlər | ● | | | | | | | | | | | |
| Dəyirmi masalar | | ● | | | ● | ● | | | | | | |
| Seminarlar | | | | | ● | ● | ● | | | | | |
| Benəlxalq konfranslar | | | ● | ● | ● | | ● | | | | | |
| Nəşrlər | | | | | ● | | ● | | | | | |
| MŞ-nın rəmzi prosesləri | | | | | | | ● | | ● | | | |
| Təsis sənədləri | | | | | | ● | ● | ● | ● | ● | | |
| Jurnalistlərin Forumu | | | | | | | | | | ● | ● | |
| MŞ-nın yaradılması | | | | | | | | | | | | ● |

*Beşinci ayadək nəzərdə tutulan tədbirlər artıq həyata keçirilib. Qalan tədbirlərin tarixləri aşağıdakı kimi nəzərdə tutulur:

*iyul 2002* KİV nümayəndələrinin iştirakı ilə 2-ci dəyirmi masa

*iyul 2002* Mətbuat Şurası ilə əlaqədar kitabın nəşri

| | |
|---|---|
| *iyul 2002* | Mətbuat Şurasına üzvlüyə namizədlərin iştirakı ilə seminar |
| *avqust 2002* | Mətbuat Şurasına üzvlüyə namizədlərin iştirakı ilə seminar |
| *avqust-dekabr 2002* | Mətbuat Şurasının Nizamnaməsinin və iş reqlamentinin hazırlanması |
| *avqust 2002* | KİV nümayəndələrinin iştirakı ilə 3-cü dəyirmi masa |
| *sentyabr 2002* | Mətbuat Şurasına üzvlüyə namizədlərin iştirakı ilə seminar |
| *sentyabr 2002* | Mətbuat Şurası ilə əlaqədar kitabın nəşri |
| *sentyabr 2002* | AŞ-nın dəstəyi və beynəlxalq ekspertlərin iştirakı ilə seminar |
| *sentyabr 2002* | Rəmzi Mətbuat Şurasının prosesi |
| *noyabr 2002* | Rəmzi Mətbuat Şurasının prosesi |
| *dekabr 2002-yanvar 2003* | Azərbaycan Jurnalistlərinin Forumunun keçirilməsi |
| *fevral 2003* | Mətbuat Şurasının dövlət qeydiyyatından keçirilməsi və fəaliyyətə başlaması |





# MƏTBUATIN ÖZÜNÜTƏNZİMLƏMƏ SİSTEMİNİN İDARƏ EDİLMƏSİ

Hər bir dövlətdə mətbuatın özünütənzimləmə sistemi onun adət və ənənələrinə uyğun şəkildə yaradılmalıdır. Bu məqalədə Mətbuat Şurasının yaradılması yolları və jurnalistlərin peşə etikasına zidd hərəkətlərinə dair Şuraya verilmiş şikayətlərə baxılması qaydaları ən ümumi formada açıqlanır.

Adətən MŞ jurnalist birliklərinin və iri naşirlərin birgə razılığı əsasında yaradılır. Özünütənzimləmə sisteminin dövlətdən asılı olmamasını təmin etmək üçün onun yaradılması təşəbbüsü yalnız mətbuatın özündən gəlməlidir. Lakin belə təşəbbüsü həyata keçirərkən ictimaiyyətin nümayəndələrini kənarda qoymaq lazım deyil. Həqiqətən də, Mətbuat Şurasının müstəqil, səmərəli və işlək olması üçün onun təşkilində bu üç tərəfin (mənbənin) iştirakı vacibdir: naşirlər, fəaliyyətdə olan jurnalistlər və cəmiyyət. Şura sədrinin kim olacağı da mühüm məsələdir. Bir çox hallarda təsisçilər arasında əldə olunan razılığa əsasən, Şura sədri mətbuatla heç bir əlaqəsi olmayan şəxslərdən seçilir, ixtisasca hüquqşünas, məsələn, Ali Məhkəmənin keçmiş hakimlərindən biri olur. İctimaiyyət nümayəndələri isə ya Şuranın Nizamnaməsində göstərilən qaydada müəyyən təşkilatlar tərəfindən namizədliyi irəli sürülən şəxslərdən, ya birbaşa Şuranın təsisçiləri tərəfindən seçilir, yaxud da hər hansı başqa bir seçim üsulu nəzərdə tutulur. İstənilən halda, sədr kimi, Şuranın ictimaiyyəti təmsil edən üzvlərinin də mətbuatla əlaqəsi olmamalıdır.

**Etik Normalar Kodeksi**

Şuranın fəaliyyətə başlaması üçün jurnalistlərin peşə etikası kodeksinin qəbul edilməsi vacibdir (Məlumdur ki, Azərbaycanda, məsələn, Bakı Mətbuat Klubunun belə bir kodeksi vardır və həmin Kodeks bütün təsisçilər tərəfindən imzalanmışdır). Bu kodeks Şuranın gələcək qərarlarının

əsaslanacağı ümumi qaydalardan (peşə prinsiplərindən) ibarət olmalıdır. Prinsiplər elə müəyyənləşdirilməlidir ki, yalnız çox nadir hallarda onları dəyişdirməyə ehtiyac yaransın.

Kodeks təsisçilər və ya Şuranın özü tərəfindən hazırlanıb qəbul oluna bilər. Lakin istənilən halda Şuranın fəaliyyətini dəstəkləyən bütün kütləvi informasiya vasitələri onu qəbul etməlidirlər

Bir qayda olaraq, kodekslərin preambulasında Şuranın əsas məqsədi qeyd olunur və bu məqsəd mətbuat azadlığının, mətbuatın və ictimaiyyətin informasiya almaq hüququnun qorunması kimi ifadə edilir. Eyni zamanda mətbuatın cəmiyyət qarşısında məsuliyyət daşıdığı və müəyyən öhdəliklərə malik olduğu da göstərilir və bundan çıxış edərək jurnalist peşəsinin əsas prinsipləri təsbit edilir. Məsələn:

- informasiya düzgün və həqiqi olmalıdır, insanların şəxsiyyəti təhqir edilməməlidir;
- məlumat cinayətkar yolla əldə olunmamalıdır;
- dərc olunan məqalələrdə faktlar təhrif edilməməli və ya gizlədilməməlidir;
- mətndə, başlıqda, şəkillərdə, anonslarda və yaxud afişalarda təhrifə yol verilməməlidir;
- dərc edilən məqalələrdə irqi, dini və milli mənsubiyyətə görə ayrı-seçkilik olmamalıdır;
- vətəndaşların şəxsiyyətini ləkələyən məlumatlara ən qısa müddət ərzində təkzib verilməlidir və s.

Kodeksin tələblərini pozmaqda Şura tərəfindən təqsirkar bilinən qəzet barəsində qərar qəbul edildikdə, həmin nəşr bu qərarı dərc etməyə borcludur. Kodeksə bu öhdəliyi təsbit edən müvafiq bənd salmaq məqsədəuyğundur.

**Büdcə**

Mətbuat şuraları, bir qayda olaraq, birbaşa onların təsisçiləri - KİV naşirləri və jurnalist assosiasiyaları tərəfindən maliyyələşir. Belə hesab edilir ki, müstəqil özünütənzimləmə orqanları imkan daxilində başqa mənbələrdən vəsait almamalıdırlar. Hökumətdən asılı vəziyyətə düşməmək üçün isə dövlət fondlarından maliyyələşdirilməkdən söhbət gedə bilməz. Həmçinin Şuraya verilən şikayətlərə görə rüsum tələb





edilməsi də yolverilməzdir. Çox nadir hallarda şuralar təqsirkarı cərimələndirmək kimi səlahiyyətə malik olurlar.

İldə bir dəfə Şuranın təsisçiləri ümumi yığıncaq keçirərək yeni maliyyə ilinin büdcəsini müzakirə edir, Şura sədrinin, yaxud katibliyin bu haqda təkliflərinə baxırlar. Onlar illik maliyyə xərclərinin ümumi həcmini öz aralarında razılaşdırır və Şuranın büdcəsinə kimin nə qədər vəsait verəcəyini müəyyənləşdirirlər.

Zəngin təcrübəsinə tez-tez müraciət edilən Avstraliya Mətbuat Şurasının timsalında belə təşkilatların büdcəsinin (həm mədaxil, həm də məxaric hissələrinin) necə formalaşdırıldığına diqqət yetirək. 2001-2002-ci maliyyə ilində Avstraliya Mətbuat Şurasına daxilolmalar 650.000 ABŞ dolları təşkil etmişdir. Əsasnamədə nəzərdə tutulduğu kimi, bunun təxminən 20%-ni ümummilli və əyalət nəşrlərini təmsil edən assosiasiyalar ödəmişlər. Məbləğin qalan hissəsini isə gündəlik paytaxt qəzetləri (əsas normativ göstəricilərinə uyğun nisbətdə) Şuranın hesabına keçirmişlər.

Bu məbləğin təxminən 40%-ni Şura qonorarların verilməsinə, iclasların təşkili və keçirilməsinə, nəqliyyat və s. birbaşa xərclərin ödənilməsinə yönəldir. Büdcənin 7%-i Şuranın Sidney şəhərindəki ofisinin kirayəsinə (kommunal xərclər də daxil olmaqla) sərf olunur. Xərclərin 30%-ni katibliyin saxlanılması təşkil edir. Qalan məbləğ isə qəzet nəşri, vebsayt, reklam, kitabxana və s. daxil olmaqla, Şuranın digər sahələrdəki fəaliyyətinə yönəldilir.

**Katiblik**

Katibliyə Şura tərəfindən təyin edilmiş İcraçı katib rəhbərlik edir. Peşəcə o, jurnalist də, menecer də ola bilər. İcraçı katib Şuranın gündəlik işinə, maliyyə və başqa hesabatlarının hazırlanmasına, şikayətlərin qəbulu və araşdırılmasına rəhbərlik edir. Onun şikayətlərin qəbuluna, sənədlərin tərtib edilməsinə, lazımi materialların Şuranın iclaslarına hazırlanmasına, toplantıların təşkili və keçirilməsinə kömək edən kiçik aparatı olur.

Katibliyin əməkdaşları üçün əvvəlcədən treninq-kursların keçirilməsi məqsədəuyğun hesab edilir. Bu, işçilərin

şikayətləri qəbul etməyin və araşdırmağın qaydalarını mənimsəməsi, bir sıra hallarda onların tərəflər arasında vasitəçi rolunu oynaya bilməsi üçün vacibdir.

Katiblik adətən yazılı şikayətləri qəbul edir. Bəzi hallarda elektron poçt vasitəsi ilə daxil olan müraciətlərə də baxılır. Katiblik şikayətçilərə onların hüquqları barədə məsləhətlər verir, problemlərinin ən münasib yolla həll olunmasına çalışır. Çox vaxt məsələ şikayətçi ilə nəşrin redaktoru arasında birbaşa əlaqə yaratmaqla həll edilir və onu Şuranın müzakirəsinə çıxarmağa ehtiyac qalmır.

**Şikayətlər**

Təcrübə göstərir ki, Şuraya daxil olan şikayətlərin əksəriyyəti yazılı KİV-nə aid olur. Şura vətəndaşların dövri mətbuatda dərc edilmiş xəbərlər, məqalələr, habelə məktub, şəkil və ya karikaturalarla bağlı şikayətlərinə də, mətbuat orqanının özündən daxil olmuş şikayətlərə də baxır.

**Şikayətin qəbul edilməməsi və ya geri qaytarılması**

Bir qayda olaraq, şuralar yalnız iddiaya səbəb olmuş materialın mətbuatda dərcindən 3 ay keçməmiş təqdim edilən ərizələri qəbul edirlər. Bundan başqa, İcraçı katib şikayətdə məsələnin qoyuluşunun Şuranın əsas prinsiplərinə uyğun gəlməməsi barədə qərar qəbul edə və buna əsaslanaraq şikayəti qəbul etməyə də bilər.

Şikayət aidiyyatı üzrə verilmədikdə də qəbul olunmur. Əgər şikayətə başqa bir orqan tərəfindən baxılması daha məqsədəuyğundursa, onda İcraçı katib onu həmin orqana göndərir, yaxud şikayətçiyə oraya müraciət etməsi barədə məsləhət verir.

**Katibliyin şikayətə dair əlavə informasiya tələb etməsi**

İcraçı katib hər bir şikayətin eyni zamanda məhkəmə baxışı predmeti olub ola bilməyəcəyini araşdırır. Belə olan hallarda o, Şura işə baxıb qərar çıxarana kimi şikayətçinin məhkəməyə müraciət etməmək barədə iltizam verməsini tələb





edir. Çünki Şura özünü məhkəmənin əlavəsi hesab etmir, əksinə, fəaliyyətinin əsas məqsədini problemin məhkəmə yolu ilə həlli variantına alternativin yaradılmasında görür. Şuranın müraciət edənlərdən belə bir iltizam tələb etməsinin daha iki səbəbi vardır: birincisi, Şura məhkəmədə olan iş üzrə şikayətə baxan və qərar çıxarmaq istəyən zaman müəyyən lazımi materialın məhkəmədə olması faktı ilə üzləşə bilər; ikincisi, tərəflərin prosesdə tutduqları mövqeyə zərər vura biləcək hərəkətlərə yol verilə bilər. Əgər şikayətçi Şuranın iltizam vermək təklifi ilə razılaşırsa, işin araşdırılması adi qayda üzrə davam etdirilir, əks təqdirdə, bu prosedura xitam verilir.

Bəzi hallarda Şuraya verilmiş şikayətlərdə məsələnin mahiyyətinə dair tam informasiya olmur, məsələn, hansısa sənəd çatışmır. Bu isə şikayətə səbəb olmuş materialın peşə prinsiplərinə nə dərəcədə uyğun olub-olmadığını müəyyənləşdirmək, konkret pozuntular barədə ədalətli qərar çıxarmaq baxımından gələcəkdə Şura qarşısında problemlər yaratmaq ehtimalı doğurur. Əgər iddiaçı onun şikayətinə dair İcraçı katibin istədiyi əlavə informasiyanı Şuraya təqdim etmirsə, bu halda da işə xitam verilir.

**İcraçı katibin vasitəçiliyi və yaxud şikayətin geri çağırılması**

Mətbuat şuraları daxil olan hər bir şikayəti ilk növbədə barışıq yolu ilə həll etməyə çalışırlar. Əgər İcraçı katib müraciətlə tanış olduqdan sonra hesab edirsə ki, tərəflər arasında barışıq sazişi bağlamaq mümkündür, o, birbaşa barəsində şikayət verilmiş nəşrin redaktorunun yanına gedir və işi onun yanındaca araşdırır. Təcrübə göstərir ki, şikayətlərin çoxu elə bu ilkin mərhələdə tərəflərin barışığı ilə sonuclanır. Əgər danışıqlar müsbət nəticə vermirsə, onda İcraçı katib şikayətin araşdırılması prosesinin növbəti mərhələsinə keçir.

O, şikayəti rəsmi qaydada cavabdeh nəşrin rəhbərliyinə ünvanlayır. Bu andan etibarən cavabdehlə bütün yazışmanın surəti iddiaçıya (və ya əksinə) ünvanlandırılır. Heç bir tərəflə təklikdə danışıqlar aparıla bilməz.

Beləliklə, nəşrin rəhbərindən cavab alınan kimi İcraçı katib onu iddiaçıya ünvanlandırır. Cavab şikayətçini qane

edirsə, işə xitam verilir.

Təcrübədə şikayətlərin təxminən yarısı bu qaydada - İcraçı katibin vasitəçilik səyləri (naşirlə görüş və ya redaksiyaya rəsmi məktub şəklində) nəticəsində həll olunur və tərəflər razılığa gəlirlər. Belə şikayətləri katiblikdə «uğurlu şikayətlər» adlandırırlar. Vasitəçilik yolu ilə həlli mümkün olmayan işlər isə artıq Şuranın müzakirəsinə çıxarılmağa hazırlanır.

## Qərarlar

Təcrübə göstərir ki, verilmiş şikayətlərin təxminən 20%-i bütün mərhələlərdən keçdikdən sonra Şura tərəfindən baxılmaq üçün iclasa çıxarılır. Belə ki, şikayətdə qaldırılmış məsələ ilə əlaqədar naşirin cavabı iddiaçını razı salmadıqda, yaxud vasitəçinin səyləri müsbət nəticə vermədikdə, yəni tərəflərdən hansısa onun təkliflərindən imtina etdikdə, iddiaçı materialları Şuranın müzakirəsinə vermək hüququndan istifadə edir. Bu zaman İcraçı katib şikayətə Şuranın ən yaxın iclaslarından birində baxılması üçün bütün lazımi tədbirləri görür.

Əvvəlcə o, işə ictimaiyyət nümayəndələrinin də daxil olduğu Şikayət Komitəsi tərəfindən mahiyyəti üzrə baxılacağını bildirir, həmçinin Komitənin iclasının vaxtı və yeri barədə tərəfləri məlumatlandırır. Tərəflərin dinləmələrdə iştirakı məcburi deyil, könüllüdür. Əksər hallarda iddiaçılar iclaslarda şəxsən iştirak etməyə üstünlük verirlər. Onlar dinləmələrə öz yaxınları və ya əməkdaşları ilə də gələ bilərlər. Cavabdeh kütləvi informasiya vasitəsini isə adətən redaksiyanın məsul işçisi, bəzən də şikayətə səbəb olmuş materialın müəllifi təmsil edir.

Hüquq məsləhətçiləri, yaxud vəkillər tərəfləri təmsil edə bilməzlər. Əgər bir, yaxud hər iki tərəf dinləmədə iştirak edirsə, şikayət dəyirmi masa arxasında müzakirə olunur. Belə olan halda işə dair heç bir yeni formal sübutun və yaxud materialın təqdim edilməsinə yol verilmir. Dinləmənin əsas məqsədi Şuraya verilmiş şikayətə aydınlıq gətirməkdən ibarətdir.



Dinləmədən sonra (adətən bir gün ərzində) Şikayət Komitəsi tövsiyə xarakteri daşıyan qərar layihəsi hazırlayaraq, onu Şuranın iclasına göndərir. Şura işi araşdırır və öz qərarını çıxarır. Həmin qərar Şikayət Komitəsinin təqdim etdiyi layihədən fərqli ola bilər.

Qərar tərəflərə yazılı şəkildə ekspress-poçtla, yaxud faksla göndərilir və kütləvi informasiya vasitələrində yayımlanır. Şura təqsirkar nəşrdən çıxarılmış qərarı birinci olaraq dərc etməyi tələb edir.

## Etiraz

Tərəflərdən hər biri Şuranın çıxardığı qərara etirazını bildirə bilər. Etiraz yazılı surətdə Şura sədrinə təqdim olunmalıdır. Sədr etirazın məzmununu araşdıraraq aşağıdakı iki qərardan birini qəbul edir:

a) əgər narazı tərəfin etiraz ərizəsində heç bir tutarlı və inandırıcı səbəb göstərilməmişdirsə, sədr onu baxılmamış saxlayır;

b) əgər sədr araşdırma nəticəsində şəxsən bu qənaətə gəlirsə ki, etiraz edən tərəf haqlıdır, məsələn, sənəddə göstərilən fakt əvvəlcədən məlum olsa idi, Şura başqa cür qərar çıxara bilərdi, o, etirazı Şikayət Komitəsinin sədrinə göndərir və yeni iclas təyin edir.

Fövqəladə hallarda sədr Şura etiraza baxmayana qədər onun iş üzrə artıq qəbul olunmuş qərarının açıqlanmasına və mətbuatda dərc olunmasına yol vermir.

## Qərarların dərc olunması

Birbaşa, yaxud təmsil olunduqları təşkilatlar vasitəsi ilə Şuranın üzvü (təsisçisi) olan bütün kütləvi informasiya vasitələri onun özlərinə aid qərarlarını dərc etməlidirlər. Çox zaman qərarın tam mətninin çap olunması tələbi qoyulmur, lakin onun nəticə hissəsi dəyişdirilmədən verilməlidir. Bu zaman redaksiya şərhlərinə, bir qayda olaraq, yol verilmir.

Hər ay Şikayət Komitəsi keçirdiyi görüşlərə, Şuranın qəbul etdiyi qərarlara və ötən dövrdə baxılan işlərə dair şərhləri

mətbuatda dərc etdirir. Rübdə bir dəfə Şura qəbul etdiyi bütün qərarların məcmusundan ibarət informasiya bülleteni, ildə bir dəfə isə tam hesabat dərc edir. Bütün şikayət və qərarlar Şuranın arxivində saxlanılır.





# DEMOKRATİK ÖLKƏLƏRDƏ MƏTBUATIN ÖZÜNÜTƏNZİMLƏMƏ MEXANİZMLƏRİ

## AVSTRALİYA MƏTBUAT ŞURASI

Avstraliya Mətbuat Şurası - Avstraliya jurnalistlər assosiasiyası, üç nəşriyyat assosiasiyası (Avstraliya kənd mətbuatı, Avstraliya əyalət qəzetləri, Avstraliyanın regional gündəlik qəzetləri assosiasiyaları) və ölkənin əsas nəşrləri tərəfindən 1976-cı ildə təsis edilmiş könüllü orqandır. Şura mətbuatın peşə etikasına riayət etməsinə kömək göstərir.

Şura Sədrdən, üzv təşkilatların on nümayəndəsindən, iki jurnalistdən, Baş redaktorlar şurasının bir üzvündən, ictimayyətin yeddi nümayəndəsindən və daha iyirmi alternativ üzvdən ibarətdir. (Şura ictimaiyyət nümayəndələri və alternativ üzvlər üçün vakansiyalar barədə elan verir. Seçimi aparan xüsusi komissiya namizədlər haqqında Sədrə məsləhətlər verir və Sədr bu kateqoriyalardan olan üzvlüyə namizədləri Şuraya təqdim edir. Bütün üzvlər cəmiyyətdə yüksək nüfuza malik olmalıdırlar.)

Mətbuat Şurası öz qarşısına Avstraliya mətbuatının səviyyəsinin yüksək tələblərə uyğun olması qayğısına qalmaq və qanunla mətbuata verilmiş hüquqları müdafiə etmək məqsədləri qoyur. Mətbuat Şurası həm kütləvi informasiya vasitələrinə qarşı qaldırılan iddiaları, həm də şəxslərin və təşkilatların mətbuata qarşı davranışları ilə bağlı şikayətləri qəbul etmək, onları araşdırmaq kimi xüsusi hüquqa malikdir.

Şura öz fəaliyyətində belə bir prinsipə əsaslanır ki, mətbuatın nəşr etmək hüququ elə ictimayyətin informasiya almaq hüququ deməkdir və mətbuat azadlığı anlayışına "qəzetin özünün yenilik saydığı məlumatları qorxusuz-hürküsüz, heç kimdən asılı olmadan və qərəz güdmədən çap

etmək, həmçinin bu məlumatlara ədalətli şərhlər vermək hüququ daxildir". Şura əmindir ki, mətbuat azadlığı mətbuatın "cəmiyyətin gözətçi köpəyi" funksiyasını yerinə yetirməsi və ictimaiyyətin onun üçün vacib olan informasiyanı almaq hüququnu təmin etmək üçün zəruridir.

Şuranın büdcəsi üzv təşkilatların hesabına formalaşdırılır. Kənd, regional və əyalət mətbuatı assosiasiyaları illik büdcənin müəyyən faizini ödəyirlər. Qalan məbləği isə Avstraliyanın gündəlik paytaxt qəzetlərinin naşirləri (bu qəzetlərin tirajlarına uyğun nisbətdə) ödəyirlər.

Şura mətbuatla bağlı şikayətlərin müstəqil, səriştəli və sərbəst surətdə araşdırılmasını təmin edir. Bu zaman o, başlıca diqqəti cəmiyyətin (ictimai maraqların) müdafiəsinə yönəldir. Şura öz qərarlarında Prinsiplər haqqında Bəyannamədə əks olunmuş 12 əsas prinsipə əsaslanır, lakin bu Bəyannamə heç də bütün hallarda müstəsna rol oynamır. Həmin prinsiplər aşağıdakı aspektləri əhatə edir: vicdanlılıq və qərəzsizlik; şəxsi həyatın toxunulmazlığı; mötəbərlilik; şayiələr; informasiyanın aldatmaq yolu ilə, yaxud şərəfsiz və çirkin üsullarla əldə edilməsi; faktla rəyin bir-birindən fərqləndirilməsinin zəruriliyi; ölçü hissinin ciddi pozulmasının yolverilməzliyi; cinsə, irqə və ya hər hansı digər mənsubiyyət əlamətlərinə görə ayrı-seçkiliyin yolverilməzliyi; cavab vermək imkanı; düzəliş və üzrxahlıq, qəzetlərin heç də onların xeyrinə olmayan məhkəmə qərarlarını dərc etmək vəzifəsi.

**Şikayətlərə baxma qaydaları**

Şikayətlərə baxılma qaydaları Şuranın mübahisələrdə vasitəçi rolunda çıxış etməsi zərurətini nəzərdə tutur. İcraçı katib əslində mətbuat nəzarətçisi ("ombudsman") rolunu oynayır, bəzi şikayətləri vasitəçi qismində həll edir, digərlərini baxılmaq üçün hər hansı tərəfin sərəncamına göndərir. Şikayətlərin təxminən 18 faizi Şuranın bilavasitə iştirakı ilə barışıqla həll edilir.

Prosedur çox sadədir, şikayətçilər telefon xərclərinə pulsuz xətdən istifadə etməklə və hərdən Şuranın Sidneydən kənarda səyyar iclaslar keçirməsi hesabına qənaət edirlər. Şikayətlər mütləq yazılı formada təqdim olunmalıdır.





Şikayətçi qəzetin cavabından narazı qaldıqda, iş Şikayət Komitəsinin növbəti iclasına çıxarılır. Çox nadir hallarda dinləmələrə hüquq məsləhətçisi, yaxud hüquq məsələləri üzrə ekspertlər qrupu cəlb edilir. Bir və ya hər iki tərəfin dinləmələrdə iştirakı faydalı olsa da, məcburi deyildir. İşə qeyri-formal qaydada baxılır. İclasın əvvəlində şikayətçi, eləcə də cavabdeh qəzetin nümayəndəsi istədikləri təqdirdə qısa çıxış edə bilərlər. Sonra Komitə üzvləri öz suallarını verirlər, sonda isə qəzetə və ya şikayətçiyə qısa şərh üçün söz verilir.

Şikayət üzrə Komitəsinə əsas etibarilə ictimaiyyət nümayəndələri, bir jurnalist və naşirlərin bir nümayəndəsi daxildir. Komitə qərar layihələrini hazırlayır və sonra bu layihələri təxminən ildə 10 dəfə tam heyətdə toplaşan Şuranın müzakirəsinə təqdim edir. Məsələn, 1992-ci ildə Şura daxil olmuş 421 şikayətdən 69-u barədə qərar qəbul etmişdir. Bu şikayətlərdən 31-i bütünlüklə və ya qismən dəstəklənmişdir. Bütün qərarlar aidiyyatı olan nəşrlərdə dərc edilmişdir.

Şuranın sanksiyası da məhz bundan ibarətdir: işə aidiyyatı olan qəzet tamamilə və ya qismən onun xeyrinə olmayan qərarı dərc etməyə borcludur. Britaniya sistemindən fərqli olaraq, Avstraliyada belə qərarların tam həcmdə nəşr edilməsi məcburi deyil, lakin istənilən halda qəzet qərarın mühüm bəndlərini mütləq öz səhifələrində yerləşdirməlidir.

1990-cı illərdə yalnız bir qərar çap edilməmişdir: şikayət obyekti olan qəzet bildirmişdir ki, ərizəçi başqa naşir olduğuna görə, bu, mübahisə nəşr sahibləri arasında olan məsələdir və deməli, Şuranın yurisdiksiyasından xaricdir. Digər halda bir müşahidəçi bildirmişdir ki, Şurada mübahisəni uduzmuş qəzet qəbul edilmiş qərar haqqında lazımi qaydada məlumat verməmişdir.

**İctimai siyasətin formalaşdırılmasında Şuranın rolu**

Mətbuat Şurasına daxil olan Söz Azadlığı Komitəsi mətbuat və fikri ifadə azadlığının müdafiəsində mühüm rol oynayır, bu mövzuda geniş ictimai müzakirələr təşkil edir.

Şura söz azadlığını məhdudlaşdıran qanun normaları əleyhinə çıxır, habelə böhtan, məhkəməni təhqir etməyə görə

məsuliyyət, informasiya mənbələrinin müdafiəsi sahəsində mövcud olan bəzi hüquq normalarının islah edilməsinə çağırır. Şura həm federal, həm də yerli səviyyədə söz azadlığının Konstitusiya təminatlarının yaradılması, həmçinin elektron kütləvi informasiya vasitələrində siyasi reklama qoyulmuş qadağaların ləğv olunması uğrunda mübarizə aparır.

Şuranın mövqeyinə hökumət də, özəl təşkilatlar da, kütləvi informasiya vasitələri də diqqətlə yanaşırlar. Şura rübdə bir dəfə "Avstraliya Mətbuat Şurasının xəbərləri" adlı bülleten buraxır, illik məruzələr dərc edir və press-relizlər yayır. Şura həmçinin konfranslar və seminarlar keçirir, orada edilən məruzələri "Avstraliya Mətbuat Şurasının konfranslarının sənədləri" seriyasında dərc edir.

Şura söz və mətbuat azadlığının müdafiəsində maraqlı olan digər təşkilatlarla əməkdaşlıq edir və informasiya mübadiləsi aparır. Avstraliya Mətbuat Şurasının sədri eyni zamanda Dünya Mətbuat Şuraları Assosiasiyasının bu təşkilatın nizamnamə layihəsini hazırlayan komissiyasına sədrlik etmişdir.

**Avstraliya Jurnalistləri Assosiasiyası**

Avstraliya Jurnalistləri Assosiasiyası (AJA) peşəkar ittifaqdır. O, KİV, əyləncə və incəsənət sənayesi işçilərinin digər təşkilatları ilə birləşərək Kütləvi İnformasiya Vasitələri Alyansına (KİV Alyansı) çevrilmişdir. Jurnalistikaya aid məsələlər indi Alyansın bir şöbəsinin sərəncamındadır, belə ki, AJA artıq bu böyük təşiklatın çərçivəsində fəaliyyət göstərir.

Peşəkar təşkilat kimi, KİV Alyansı çoxdandır ki, jurnalist etikası məsələlərinə xüsusi diqqət yetirir. O, Mətbuat Şurasının yaradılmasının başlıca tərəfdarı olmuşdur və öz Nizamnaməsinin üzvlüyə qəbul etmə qaydaları haqqında bəndində Etika Məcəlləsinə əməl etməyin məcburiliyini təsdiqləyir.

Məcəlləyə əməl olunmasına Məhkəmə Komitəsi öz bölmələri vasitəsilə nəzarət edir; şikayətçiərin əvvəlcə Apellyasiyalar üzrə Komitəyə, sonra isə KİV Alyansı Federal Şurasına şikayət vermək hüququ vardır.

Qaydalara görə, jurnalist Məhkəmə Komitəsinin





qarşısında dayanmağa məcburdur və mövcud cərimə sistemi jurnalistin Alyansda üzvlüyünün dayandırılması, hətta onun Alyans üzvlüyündən kənarlaşdırılması kimi sanksiyaların tətbiqinə imkan yaradır. Jurnalistlərin böyük əksəriyyətinin KİV Alyansının üzvü olduğunu nəzərə alsaq, bu sanksiyaların böyük əhəmiyyət kəsb etdiyini görərik.

Müzakirələr obyektiv və qərəzsiz olmalıdır; müzakirələrin mətnləri Federal icra orqanının, yaxud Alyansın Federal Şurasının xüsusi icazəsi olmadan nəşr edilə bilməz. Son vaxtlar hər bir Məhkəmə Komitəsinə kütləvi informasiya vasitələrinin peşəkar işçisi olmayan bir nəfərin daxil edilməsi, həmçinin komitələrin gəldiyi nəticələrlə ictimayyətin tanış olması üçün onların dərc edilməsi barədə təkliflər irəli sürülmüşdür.

## AVSTRİYA MƏTBUAT ŞURASI

Avstriya Mətbuat Şurası 1961-ci ildə Qəzet Naşirləri Assosiasiyası və Avstriya Jurnalistlər İttifaqı tərəfindən könüllü özünütənzimləmə mexanizmi yaratmaq məqsədilə təsis edilib. Şura bu təşkilatların hər birindən olan 10 nəfər nümayəndədən ibarətdir. Nizamnaməyə uyğun olaraq Şura bütün gücünü mətbuat azadlığının qorunmasına və bütün KİV əməkdaşlarının yüksək peşəkarlıq səviyyəsində fəaliyyət göstərməsinə sərf edir. O, mətbuatın nüfuzunun qorunması, müxtəlif səhlənkarlıqların müəyyən edilməsi və onların qarşısının alınması üçün cavab verir. Mətbuatın maraqlarını parlamentdə, hökumətdə və ictimaiyyət qarşısında təmsil etmək də Şuranın vəzifəsidir.

İstənilən şəxs, hansısa bir yazıda ictimai əbəd-ərkanın alçaldıldığına, şəxsi həyata müdaxilə edildiyinə, yaxud hadisələr barədə dəqiq və həqiqətə uyğun məlumatlar yaymaq öhdəliyinə əməl edilmədiyinə, eləcə də jurnalistikanın digər hər hansı prinsipinin pozulduğuna əmindirsə, Mətbuat Şurasına müraciət edə bilər. Şura belə prinsiplərin toplusunu hazırlayıb *"Grundsatze fur die publizistische Arbeit - Ehrenkodex der osterreichischen Presse"* (Əxlaq məcəlləsi) dərc edir.

Şuranın KİV tərəfindən həyata keçirilməsi məcburi

olan qərarlar qəbul etmək hüququ yoxdur. Onun yeganə sanksiyası özünün xüsusi qənaətini dərc etdirməkdir. Şura qəbul edilmiş etik normaların pozulmasında günahkar olan nəşrlərdən öz fəaliyyətləri ilə bağlı neqativ rəyin dərcini tələb edə bilər, amma onu zorla çap etdirmək səlahiyyətinə malik deyil. Əksər qəzet və jurnalların Şuranın qərarlarına hörmətlə yanaşaraq həmin rəyləri dərc etməsinə baxmayaraq, barəsində çoxlu qərar çıxarılmış Avstriyanın ən nüfuzlu qəzeti *"New Kronen-Zeitung"* bundan imtina etmişdir.

Mətbuat Şurasını tez-tez bunda tənqid edirlər ki, onun tərkibi yalnız naşir və jurnalistlərdən ibarətdir, müstəqil ekspert və ictimaiyyətin nümayəndələri buraya daxil deyil və nəticədə ictimaiyyət Şuranın fəaliyyəti ilə bağlı heç bir informasiya ala bilmir. Çoxları belə hesab edir ki, Şura yetərincə nüfuza sahib deyil.

## KANADA MƏTBUAT ŞURASI

Kanadada mətbuat məsələləri üzrə milli şura yoxdur. Ölkədə beş əyalət şurası (Britaniya Kolumbiyası, Alberte, Manitobe, Ontario və Kvebekdə) və bir regional təşkilat mətbuat məsələləri üzrə Atlantika Şurası (Nyufaundlend, Şahzadə Edvard adası, Yeni Şotlandiya və Yeni Bransvik əyalətlərini əhatə edir) fəaliyyət göstərir. Seskeçevanda, Yukonda, Şimal-qərbi ərazilərdə isə belə şura ümumiyyətlə yaradılmayıb. Mətbuat məsələləri üzrə əyalət şuralarından başqa, Kanadada eyni problemlərlə məşqul olan bir sıra digər ictimai şuralar, həmçinin Mətbuatın Parlament Qalereyası adlanan təşkilat da mövcuddur. Bu təşkilatların hamısına üzvlük könüllüdür.

Şuraların fəaliyyətinin səmərəliliyi onların qəzetləri çevik idarə edə bilmək, peşəkar və etik normaları pozanlara təsir göstərmək bacarığından asılıdır. Məcburiyyət mexanizminin olmamasına baxmayaraq, haqqında şikayət verilən qəzet şuranın istənilən qərarını qeyd-şərtsiz dərc edir. Bu, şuraların Kanada jurnalistikasında yüksək peşəkarlıq standartlarının qorunub saxlanmasındakı mühüm roluna dəlalət edir.

Jurnalistlər mətbuat şuralarının daxil olan şikayətlərlə əlaqədar keçirdikləri proseslərə və onların gəldikləri nəticələrə hörmətlə yanaşırlar. Elə ictimaiyyətin də Şuraya münasibəti belədir, çünki şuraların əksəriyyətində bu təşkilata üzvlük ictimaiyyət nümayəndələri ilə mətbuat təmsilçiləri arasında ədalətli qaydada bölünüb. Kütləvi informasiya vasitələrini özünüsenzuraya vadar etmədən, şuralar qəzetləri bütün hadisələri dəqiq, qərəzsiz, hərtərəfli və diqqətlə işıqlandırmağa çağırırlar.

### Kanadada Ontario Şurası tipli Mətbuat Şuraları

Mətbuat şuraları müvafiq birlik və regionların ehtiyaclarını təmin etmək məqsədilə yaradılıb. Ontario Mətbuat Şurası da bu mənada istisna təşkil etmir.

1992-ci ilədək Şuraya təqribən 120 qəzet daxil olub. Şura özü 21 nəfərdən ibarətdir. Daxil olan şikayətlər həmin bu Şura üzvləri tərəfindən müzakirə edilir və qərar çıxarılır. Sədrin mətbuata heç bir aidiyyatı olmamalıdır. Qalan 20 yer ictimaiyyət və mətbuat nümayəndələri arasında bərabər bölünür. Şurada ictimaiyyəti təmsil edən üzvlərin kütləvi informasiya vasitələri ilə peşə bağlılığı olmamalıdır. Eyni zamanda onlar Ontarionun və digər coqrafi vilayətlərin əhalisinin ən müxtəlif təbəqələrini təmsil etməlidirlər. Şura üzvü olan mətbuat işçiləri arasında da müəyyən mütənasiblik gözlənilməlidir: burada həm naşirlər, həm redaktorlar, həm də reportyorlar təmsil olunmalıdırlar. Seçkilər Şuraya daxil olan qəzetlərin nümayəndələrinin ümumi iclasında üçdə iki səs çoxluğu ilə keçirilir. Üzvlük müddəti iki ildir, heç kim səkkiz ildən artıq Şura üzvü ola bilməz.

İstənilən şəxs Şuraya şikayət edə bilər, bunun üçün ondan heç bir haqq tələb olunmur. Bütün xərcləri Şura özü çəkir. Lakin bu, o demək deyil ki, Şura ona təqdim olunan hər şikayət ərizəsini avtomatik olaraq qəbul edir. Şura öz seçimində tam sərbəstdir, onun fəaliyyət sərbəstliyi məhdudlaşdırılmır.

Şikayət konkret olmalıdır. Haqqında şikayət verilən

qəzetə vəziyyəti düzəltmək üçün ilkin imkan verilməlidir. Ərizə təqdim olunan vaxtdan altı ay əvvəl baş vermiş hadisələrlə bağlı şikayətlərə bir qayda olaraq baxılmır. Şura məhkəmə istintaqı altında olan, habelə gələcəkdə məhkəməyə çıxarılması nəzərdə tutulan işlərlə məşğul olmur. Odur ki, bəzi hallarda Şura sonradan şikayətçinin məhkəməyə müraciət etməməsi tələbi üzərində israr edə bilər. Şura sahibkarlarla həmkarlar ittifarları arasında əmək şəraitinin yaxşılaşdırılması haqqında danışıqların nəticələrinə, habelə Ontarionun əmək qanunvericiliyindən doğan ziddiyyətlərə dair şikayətlərə də baxmır. Nəhayət, Şuraya daxil olmayan qəzetə qarşı iddia qaldırıldıqda, həmin qəzetin razılığı olmadan Şura bu məsələ ilə məşğul olmur.

Şikayət ərizəsi alındıqdan sonra, Şuranın beş üzvündən (onlardan sədr də daxil olmaqla üç nəfəri ictimaiyyətin nümayəndəsidir) ibarət Təhqiqat Komitəsi məsələni araşdırmağa başlayır. Həm şikayətçi, həm də qəzet Komitəyə yazılı şəkildə izahat verməli, əllərində olan dəlil və sübutları ona təqdim etməlidirlər. Həp iki tərəf iş üzrə qeyri-rəsmi dinləmədə şəxsən iştirak etməyə borcludur, heç kimə öz əvəzinə iclasa vəkil və ya hüquq məsləhətçisi göndərməyə icazə verilmir. Komitə heç bir təqdimat qəbul etmir, çarpaz dindirmə keçirmir. And içmək lazım gəlmir və dinləmənin stenoqramı yazılmır. Əvvəlcə şikayətçi, onun ardınca isə cavabdeh dinlənilir, sonra hər iki tərəfə təkziblə çıxış etmək imkanı verilir. Hər iki tərəf şahid təqdim etmək hüququna malikdir. Sonda yazılı şəkildə yekun bəyanat vermək tələb olunmur. İşin təfərrüatını qapalı saxlamaq məqsədi ilə Şura hər bir tərəfin tərtib etdiyi yekun sənədin tam mətnini yalnız qarşı tərəfə göndərir.

Təhqiqat Komitəsinin hazırladığı qərar layihəsini Şura tam heyətdə müzakirə edib son qərar çıxarır. Əgər baxılan şikayətin Şura üzvlərindən hər hansı birinin mənsub olduğu qəzetə aidiyyatı varsa, bu halda həmin şəxs nə Təhqiqat Komitəsinin işində, nə də son qərarın qəbul edilməsi prosesində iştirak edə bilməz. Şikayət həmişə qəzetin işçilərinə qarşı deyil, bilavasitə nəşrə qarşı yönəldilir. Şura öz qərarını mətbuata verilən rəsmi məlumatda elan edir. Bu məlumatda





yalnız şikayətçinin və qəzetin adları çəkilir, konkret imzalar isə göstərilmir. Şikayətdə adı hallanan qəzet Şuranın qərarını dərc etməyə borcludur, çünki hər bir nəşr Şuraya yalnız bu şərtlə qəbul olunur.

Ontario Mətbuat Şurası jurnalistlər üçün peşə etikası kodeksi, yaxud onların peşə fəaliyyətində rəhbər tutmalı olduqları heç bir əsasnamə hazırlamayıb. Etik normalar konkret məsələlərin həlli zamanı verilən şərhlər əsasında müəyyənləşdirilir. Şikayətə səbəb olan hallar çox müxtəlifdir. Onların yarıya qədəri kütləvi informasiya vasitələrində gedən xəbərlərdə qərəzliliyə, təhqirə, faktların təhrifinə, saxtalaşdırmaya, səriştəsizliyə, sensasiyabazlığa və digər buna bənzər hallara yol verilməsi ilə bağlıdır. Qalan şikayətlər isə karikaturalara, başlıqlara, foto-şəkillərə və şəxsi rəylərə aiddir.

Ontario Mətbuat Şurası həmçinin mətbuatın hüquqlarını pozan ayrı-ayrı şəxslərin və təşkilatların hərəkətlərindən verilən şikayətlərə də baxır. Belə şikayətlərə nadir hallarda rast gəlinir və adətən onlar mətbuatın informasiya əldə etmək hüququnun məhdudlaşdırılması haqqında olur. Məsələn, 1973-ci ildə Şura Ottava vətəndaşının belə bir şikayətini müdafiə edib. Həmin şəxs Ottava-Karlton bölgəsinin rəsmi inkişaf planını qapalı sessiyalarda işləyib hazırlamaq haqqında pegional planlaşdırma komitəsinin qərarına etiraz etmiş, bunu mətbuatı və ictimaiyyəti vacib informasiyadan məhrum etmək cəhdi kimi qiymətləndirmişdi.

## ALMANİYA MƏTBUAT ŞURASI

Əyalətlərin mətbuat haqqında qanunlarının 6-cı maddəsində deyilir ki, materiallar dərc olunmazdan əvvəl informasiyanın mənbəyi və faktların dəqiqliyi də daxil olmaqla, onların bütün məzmununu yoxlamaq vəzifəsi mətbuatın öz öhdəsinə düşür. Mətbuat haqqında qanunların 21-2-ci maddəsinə görə, bu öhdəliyə çap olunmuş materialların Cinayət Məcəlləsini pozmamasını yoxlamaq məsuliyyəti də daxildir.

1956-cı ildə qəzet naşirləri və jurnalistlərin assosiasiyaları mətbuatda özünütənzimləmə mexanizmini tətbiq etmək üçün müstəqil və qeyri-hökumət təşkilatı olan Almaniya Mətbuat Şurasını yaratdılar.

1973-ci ildə Şura naşirlərin və jurnalistlərin assosiasiyaları ilə birlikdə peşə etikası kodeksini hazırladı. Bu kodeks qanun gücünə malik olmasa da, mətbuat haqqında qanunlarda işlədilən "ictimai məsuliyyət" və ya "etika" kimi ümumi anlayışları geniş şərh edən bir sənəd kimi mühüm rol oynayır. Kodeksin əsasını informasiyanın həqiqiliyi, şəxsi həyatın toxunulmazlığı və ləyaqətə hörmət, informasiya toplanmasında qeyri-qanuni və ədalətsiz üsullardan istifadə etməkdən imtina, irqi, dini və milli mənsubiyyətə görə təhqirin yolverilməzliyi kimi prinsiplər təşkil edir.

Şura etika qaydalarının pozulması ilə bağlı ayrı-ayrı şəxslərin mətbuata qarşı şikayətlərinə baxır. Əgər şikayət əsaslıdırsa, Şura bu barədə öz qərarını çıxara, etik qaydaları pozmuş informasiya orqanına iradını bildirə və həmin iradın qəzetdə dərc olunmasını tələb edə bilər. Təkcə 1991-ci ildə Şuraya 400 belə şikayət daxil olmuşdur. Onların böyük əksəriyyəti diqqətlə araşdırılmış və həll edilmişdir. 102 halda isə Şura rəsmi baxış keçirmişdir. Bu iddialardan 56-sı təmin edilməmiş, 46 iddia isə əsaslı sayılmışdır. Əsaslı iddialar üzrə konkret nəticələr əldə olunmuş, cavabdehlərə 35 halda şəxsi töhmət, 11 iş üzrə isə ictimai töhmət verilməsi haqqında qərar çıxarılmışdır. Şura cavabdeh qəzetlərdən tələb etmişdir ki, onlar ictimai töhmət verilməsi haqqında qərarları öz səhifələrində dərc etsinlər. Bütün hallarda Şuranın bu tələbi yerinə yetirilmişdir. Əvvəllər bəzən Mətbuat Şurasının qərarları onun öz təsisçiləri tərəfindən boykot olunurdu, amma 1986-cı ildə Şura yenidən qurulduqdan sonra, rəqəmlərin də göstərdiyi kimi, onun işinin səmərəliliyi xeyli artmışdır.

## NİDERLAND MƏTBUAT ŞURASI

Niderlandda jurnalistlərin yazılı etika kodeksi indiyədək işlənib hazırlanmayıb. 1970-ci illərin əvvəllərində belə bir kodeks yaradılsa da, qəbul olunmayıb. Bununla belə,





Niderlandın mətbuat assosiasiyaları Beynəlxalq Jurnalistlər Federasiyasının Etika Kodeksinə uyğun fəaliyyət göstərməyi özlərinə mənəvi borc hesab edirlər.

Müstəqil Mətbuat Şurası 1960-cı ildə vətəndaşların məsuliyyətsiz jurnalistlərdən müdafiəsinin dövlət tərəfindən nizamlanması ilə bağlı ictimaiyyətin təkidli tələbinə cavab olaraq yaradılıb. Burada şikayətlərə baxılma prosesi sadədir, yüksək məsrəflər tələb etmir və məhkəmə proseslərindən fərqli olaraq, adətən məxfi keçirilir. Şuranın qərarlarının hüquqi qüvvəsi yoxdur və o, heç bir ciddi sanksiya tətbiq edə bilməz. Bunun üçün vətəndaşlar adi məhkəmələrə müraciət etməlidirlər.

Şuranın qərarı onun üzvləri arasında bu sənədin əsas müddəaları barədə razılıq əldə edildikdən sonra qüvvəyə minir. KİV-nin yaratdıqları ən mühüm təşkilatlar - Niderland Jurnalistlər Assosiasiyası, Redaktorlar Assosiasiyası, yayım şirkətləri və nəşriyyatlar Şuranın üzvləridir. Şuranın qərarının peşəkar *"De Journalist"* jurnalında dərci bu orqanın tətbiq edə biləcəyi yeganə əhəmiyyətli sanksiyadır. Şura mübahisədə iştirak edən qəzetlərə ya qərarı dərc etməyi, ya da ən azı baxılan iş barədə məlumat verməyi təklif edir, lakin bunu onlara bir vəzifə kimi tapşırmır.

Şura 16 üzvdən ibarətdir. Onlardan 8-i jurnalist, qalanları isə KİV sahəsi üzrə mütəxəssislərdir. Şuranın rəhbəri və katibi hüquqşünas olmalıdır. Şuranın rəhbəri şikayətləri nəzərdən keçirən komissiyanın tərkibini müəyyənləşdirir və ona sədrlik edir. Komissiyanın tərkibinə 3-5 nəfər daxildir, qərarlar açıq iclaslarda adi səs çoxluğu ilə qəbul edilir, lakin komissiyanın rəhbəri işin xüsusiyyətlərini, iddiaçının, yaxud digər iştirakçıların maraqlarını nəzərə alaraq, başqa qayda da müəyyənləşdirə bilər. Şura şahidləri və ekspertləri dinləyə bilər. Mətbuat Şurası işin müzakirəsinə başladığı vaxtdan iş üzrə qərar çıxarılanadək məxfilik qorunur. Əgər işin araşdırılması üçün daha çox vaxt tələb olunmursa, şikayətlərə baxılma müddəti 8 həftədir.

Şura dərc olunmuş yazıda birbaşa, yaxud dolayısı ilə adı hallandırılan şəxslərin və ya təşkilatların şikayətlərinə baxır. Jurnalistin davranışı ilə də bağlı (əgər o, vəzifə

səlahiyyətlərindən kənara çıxıbsa) şikayət verilə bilər, lakin bu halda iddia naşirə, yaxud redaktora deyil, məhz jurnalistin özünə qarşı irəli sürülməlidir. Şura məqalənin kontekstini nəzərə alaraq, "öz səlahiyyətlərini aşmaq üstündə jurnalisti məsuliyyətə cəlb etməyə nə dərəcədə əsas olduğunu" müəyyənləşdirməli, bu barədə qərar çıxarmalıdır. Bu zaman Mətbuat Şurası yalnız mövcud olan tənzimləyici norma və üsullardan istifadə etmir, o həm də öz qərarları ilə yeni standartlar yaradır ki, bu standartlar da presedent hüququna oxşar statusa malik olur.

Jurnalistlər Mətbuat Şurasının apardığı araşdırmada iştirak etməyə bilərlər, lakin Niderland jurnalistlərinin 60 faizə qədərini özündə birləşdirən Jurnalistlər Assosiasiyasının nizamnaməsində belə bir vəzifə müəyyən olunmuşdur. Əgər Şura hesab etsə ki, işin araşdırılmasında iştirak etməyən jurnalistin maraqları onun özü olmadan lazımi səviyyədə müdafiə edilə bilməz, qərarın qəbulu təxirə salınır. Dərc olunmuş yazıya görə məsuliyyəti həmin yazının müəllifi daşıyır. Bütövlükdə qəzetin məzmununa görə məsuliyyət isə baş redaktorun üzərinə düşür.

**Məsləhətçi orqan**

1980-ci ildə mətbuatla polis və hüquq-mühafizə orqanları arasında münaqişələri həll etmək və vasitəçilik funksiyasını yerinə yetirmək üçün prokurorluq, polis və KİV əməkdaşlarından ibarət xüsusi məsləhətçi orqan yaradılmışdır. Ədliyyə və daxili işlər nazirlikləri polislə mətbuatın münasibətlərini tənzimləyən xüsusi normativ aktın qəbul olunmasını təklif edirlər. Həmin aktda jurnalistlərin və KİV-nin digər işçilərinin hüquqları, həmçinin ictimai qayda-qanunun mühafizəsi və cinayət işlərinin istintaqının gedişinə qarışmamaq məqsədilə onların fəaliyyətinə qoyulan məhdudiyyətlər sadalanır. Jurnalistlər məsləhətçi orqana polisdən şikayət edə bilərlər.

## NORVEÇ MƏTBUAT ŞURASI

1936-cı ildən Norveçdə qəzetlərin könüllü olaraq yaratdıqları Mətbuat Şurası fəaliyyət göstərir. Şuranın üzvlərindən dördü mətbuat, üçü isə ictimaiyyət nümayəndəsidir. Şuranın üzvlərini Milli Jurnalistlər Birliyinin, Redaktorlar Assosiasiyasının və Naşirlər Assosiasiyasının birgə təsis etdikləri Norveç Mətbuat Assosiasiyası təyin edir. Mətbuat Şurası qəzet dairələrində yüksək nüfuza malikdir.





Mətbuat Şurası dərc olunmuş bütün yazılar haqqında şikayətlərə baxır. Hər bir vətəndaş, təşkilat və dövlət orqanı Şuraya şikayət verə bilər. Mətbuat Assosiasiyasının Baş katibi (onun özü Şura üzvü ola bilməz) də öz təşəbbüsü ilə Şurada məsələ qaldırmaq səlahiyyətinə malikdir. Şikayət ərizəsi narazılığa səbəb olmuş məqalə dərc olunan gündən üç aydan gec olmayaraq verilməlidir.

Zərərçəkənin öncə nəşrin redaktoruna müraciət etməsi vacib deyil. Şikayət tamamilə qeyri-rəsmi formada verilə bilər. Hətta onun yazılı şəkildə olması da məcburi deyil. Şikayətin təsdiqi üçün heç bir sənəd tələb olunmur. Məsələnin sonradan daha dəqiq araşdırılması üçün Mətbuat Şurası şikayətçiyə iddianı düzgün tərtib etməkdə kömək göstərir. Şura özü redaktorlarla əlaqə yaradır və mübahisənin qeyri-rəsmi şəkildə həll olunması üçün tərəflərə yardım edir.

Əgər iş artıq məhkəmə baxışındadırsa, yaxud zərərçəkən paralel olaraq məhkəməyə də müraciət etmək fikrindədirsə, Mətbuat Şurası şikayəti qəbul etmir. Bununla belə, şikayətçidən işi məhkəməyə verməkdən birdəfəlik imtina etmək tələb olunmur: əgər Mətbuat Şurasının qərarı zərərçəkəni təmin etməsə, o, sonradan məhkəmədə iddia qaldıra bilər.

Şura şikayətə səbəb olmuş məqalə, yaxud mətbuat nümayəndəsinin hərəkətləri barədə həmişə rəsmi bəyanat verir. Hüquq pozuntusunun baş verdiyini aşkar etdiyi bütün hallarda Şura bu barədə müvafiq qərar çıxarır. Qərar təqsirli bilinib məzəmmət olunan qəzetin ən gözəçarpan yerində dərc edilməli və 1992-ci ildə qoyulmuş yeni qaydaya görə, Mətbuat Şurasının xüsusi nişanı ilə işarə olunmalıdır.

Bununla belə, Şura hakim məcburedici səlahiyyətlərə malik deyil, əks halda o, *"Redaktorplakaten"*lə ziddiyyət təşkil edərdi.

**"Redaktorplakaten"**

*"Redaktorplakaten"*, yaxud Redaktor Məcəlləsi redaktorların hüquq və vəzifələrini müəyyənləşdirir. Bu sənəd redaktorların müstəqilliyinin təmin olunmasında başlıca rol oynayır. O, 1953-cü ildə redaktorlar və naşirlər assosiasiyalarının nümayəndələri tərəfindən imzalanıb və 1973-cü ildə yenidən nəzərdən keçirilib. Həmin vaxtdan məcəlləyə hörmətlə yanaşılır. Belə ki, məhkəmələrin əksəriyyəti onu ümumi hüquqi sənəd kimi qəbul edir. Həm Norveç Mətbuat Assosiasiyasının Əxlaq Kodeksində, həm də jurnalistlərin Tarif Sazişində redaktorların müstəqilliyi barədə müddəalar var.

*"Redaktorplakaten"ə*, həmçinin CM-nin 436-cı maddəsinə uyğun olaraq, qəzetin məzmunu ilə bağlı bütün məsələlərin həllində baş redaktor hədsiz səlahiyyətlərə malikdir. Qanuna görə, naşirin nəyi çap etməyi müəyyənləşdirmək hüququ yoxdur. 1987-ci ildə *"Morqenbladet"in* naşiri qəzetin birinci səhifəsini dəyişdirmişdi. Buna görə qəzetin redaktorlar korpusu tam heyətlə istefa vermişdi. Elə həmin il *"Midhordaland"ın* naşiri onun özü və ailə biznesi haqqında məqaləni qəzetin növbəti sayından çıxarmağı texniki işçilərdən tələb etmişdi. Redaktor və məqaləni hazırlamış jurnalist dərhal öz vəzifələrini tərk edərək, küçənin digər tərəfində yerləşən rəqib qəzetə işə keçmişdilər. Nəticədə *"Midhordaland"* müflisləşib, onun rəqibi isə indiyədək fəaliyyətini davam etdirir. Bu faktlar redaktor və jurnalistlərin öz müstəqillikləri uğrunda apardıqları mübarizəni çox yaxşı əks etdirir. Redaktorun belə "muxtariyyətə" malik olması qəzetin sahibinin dərc olunan yazılara və nəşrin mövqeyinə təsir göstərmək cəhdlərini xeyli məhdudlaşdıra bilər.

## BÖYÜK BRİTANİYANIN MƏTBUATDAN ŞİKAYƏTLƏR ÜZRƏ KOMİSSİYASI

Böyük Britaniyada mətbuatın qanunla tənzimlənməsi qadağan olunduğu üçün bu məhdudiyyəti aradan qaldırmaq məqsədilə 1953-cü ildə Mətbuat Şurası yaradılmışdır. İlk dövrlərdə bu, KİV nümayəndələrindən ibarət olan, ikili və bəzi müşahidəçilərin fikrincə ziddiyyətli rol oynayan, yəni eyni





zamanda həm söz azadlığını müdafiə edən, həm də ictimaiyyətin şikayətlərini araşdıran könüllü təşkilat idi. Lakin zaman keçdikcə bu orqanın səlahiyyətlərinin məhdudluğu və qərarlarının qeyri-ardıcıllığı üzündən ictimaiyyətin ona olan etimadı heçə enmişdir. Bundan başqa, Şura mübahisələrə yalnız bir halda - şikayət edən şəxs məhkəmə qaydasında böhtan haqqında iş qaldırmaq hüququndan imtina etdikdə baxa bilərdi ki, bu da ictimaiyyəti təmin etmirdi.

Mətbuatla əlaqədar şikayətlərə baxmaq üçün yeni Komissiya 1991-ci ildə yaradılmışdır. Mətbuat azadlığını qorumaq -kimi vəzifə daşımayan Komissiyanın məqsədi cəmiyyəti müdafiə etməkdir. Yeni Prosessual Məcəllə məlumatın dəqiqliyi, ədalətliliyi, özəl həyatın toxunulmazlığı və informasiya mənbələrinin müdafiəsinin standartlarını müəyyən etmişdir.

KİV-nin təsis etdiyi Komissiya peşəcə jurnalist olamayan altı nəfərdən və doqquz nəfər mətbuat nümayəndəsindən ibarətdir. Qərarlar yazılı müraciətlər əsasında çıxarılır.

Yeni, daha mükəmməl Prosessual Məcəllənin daha ədalətli qərarlar çıxarılacağına səbəb olacağı güman edilirdi. Lakin, təəssüf ki, yeni Komissiya Mətbuat Şurasının bir çox qüsurlarını özündə saxlamaqdadır. Belə ki, o, nəinki öz qərarlarını həyata keçirmək, hətta bunların dərcini təmin etmək səlahiyyətinə malik deyil. Prosessual Məcəllənin özündə bir sıra qeyri-müəyyənliklər var və sensasiyaya meylli qəzetlərin redaktorları bundan vətəndaşların şəxsi həyatına müdaxiləyə haqq qazandırmaq üçün istifadə edirlər. Komissiya Məcəllənin pozulması hallarını öz təşəbbüsü ilə araşdırmır, bu barədə şikayətin daxil olmasını gözləyir.

Kütləvi informasiya vasitələri onların fəaliyyətini nəzarətə alacaq yeni qanunların tətbiq ediləcəyindən çəkinərək bu Komissiyanı könüllü surətdə tanımalı olmuşlar. 1990-cı ildə Devid Kelkattın mətbuatın şəxsi həyata müdaxiləsi ilə bağlı məruzəsində qanunla təsbit edilmiş ictimai tribunal yaratmaq təklif olunmuşdu; müəllifin fikrincə, bu tribunal ifadə verən şəxsləri andiçməyə cəlb etmək, açıq surətdə üzr istəmək və düzəlişlər etmək barədə sərəncam vermək, habelə

vurulmuş zərəri ödəməyi KİV-nin öhdəsinə qoymaq kimi səlahiyyətlərə malik olmalıdır. Prosessual Məcəllədə etik normaların qeyri-dürüst ifadə edilməsinə baxmayaraq, məruzə həmçinin Məcəllənin pozulduğu sübuta yetirildiyi hallarda tribunallara qadağalar qoymaq səlahiyyəti verilməsini də nəzərdə tuturdu. Məruzə şəxsi həyata əsassız müdaxilə hallarında vurulmuş zərərin əvəzinin ödənilməsi qaydaları haqqında mülki hüququn norma və prinsiplərini əsas kimi qəbul etmək barədə tövsiyəni rədd edirdi.

**Mətbuat ombudsmanları**

Kelkattın birinci məruzəsinin daha bir nəticəsi bundan ibarət oldu ki, ümumilli qəzetlərin çoxu öz ştatlarına ombudsman vəzifəsi daxil etdilər. Lakin hazırda faktlar göstərir ki, ombudsmanların, yəni oxucuların şikayətlərinin araşdırılması ilə məşğul olan şəxslərin rolu və nüfuzu yox dərəcəsindədir.

**Müdafiə məsələləri üzrə xəbərdarlıq komitəsi**

Müdafiə məsələləri üzrə xəbərdarlıq komitəsi kütləvi informasiya vasitələrinin və silahlı qüvvələrin nümayəndələrindən ibarətdir. Komitənin məqsədi ictimai müzakirəsi cəmiyyətə real zərər vura biləcək mövzuları müəyyənləşdirməkdə mətbuata kömək göstərməkdir. Bununla belə, hətta komitənin icazəsinin olması da KİV-ni sonrakı məhkəmə təqibindən qorumur. Komitənin böyük nüfuzu yoxdur; belə ki, hökumət ondan heç də təkcə geniş milli mənafelər üçün təhlükə doğuran diskussiyalara deyil, həm də özü üçün arzuolunmaz siyasi diskussiyalara yol verməmək məqsədilə istifadə edir.

Bu, sırf könüllü institutdur və bir çox KİV qəti şəkildə bildirmişdir ki, onların Komitəyə heç bir aidiyyatları yoxdur.

## İSVEÇ MƏTBUAT ŞURASI

İsveçdə mətbuatın özünütənzimləmə ənənəsi uzun tarixə malikdir. 1916-cı ildə Avropada ilk dəfə Mətbuat Şurası burada yaradılıb, onun əsas vəzifəsi mətbuatın fəaliyyətinə nəzarət etmək olub. 60-cı illərdə mətbuata qarşı yönəldilmiş və





gündən-günə artan tənqidə, həmçinin qanunların sərtləşdirilməsi barədə çağırışlara cavab olaraq, KİV-nin üç əsas təşkilatı - Qəzet Naşirləri Assosiasiyası, Jurnalistlər Birliyi və Milli Mətbuat Klubu könüllü şəkildə peşəkar islahatlara başladılar. Onlardan daha vacibi Mətbuat Şurasına peşəcə jurnalist olmayan şəxslərin daxil edilməsi və Mətbuat Ombudsmanı vəzifəsinin (ictimaiyyətin nümayəndəsi rolunu icra edən şəxs) təyin olunması idi. İndi şura 6 üzvdən: ali məhkəmələrdən (Ali Məhkəmənin, yaxud Ali İnzibati Məhkəmənin) birinin üzvü və eyni zamanda Şuranın sədri olan hakim də daxil olmaqla 3 ictimaiyyət və 3 mətbuat nümayəndəsindən (yuxarıda adları çəkilən təşkilatların hər birindən bir nəfər) ibarətdir. Bu orqan könüllülük əsasında fəaliyyət göstərir, jurnalistlər və Çap Sənayesi Birliyi tərəfindən maliyyələşdirilir.

Mətbuat Şurası və Ombudsman mətbuatı Etika Kodeksinə riayət etməyə həvəsləndirməyə çalışırlar. Kodeksin əsas məqsədi vətəndaşların şəxsi həyatının toxunulmazlığını qorumaqdır. Bununla belə, Kodeks ictimai xadimlər haqqında ətraflı reportajlar (hətta bu, onların şəxsi həyatı ilə bağlı olsa belə) hazırlamağa mane olmur. Kodeks hətta "adi cinayətkarlar"ın da adlarının gizli saxlanması prinsipini müdafiə etsə də, Mətbuat Şurası, çətin ki, siyasətçilərin şəxsi həyatlarına müdaxilə ilə bağlı şikayətlərə dəstək versin.

Ombudsmanın vəzifəsi münaqişəli vəziyyətlərdə ictimaiyyətlə mətbuat arasında vasitəçilik etmək, ayrı-ayrı şəxslərə öz nüfuz və şəxsi həyatının toxunulmazlığını qorumaqda kömək göstərmək, bu cür pozuntular olduqda, müvafiq materiallara düzəliş və yaxud təkzib verilməsini tələb etməkdir. Vətəndaş Ombudsmana şikayət verə bilər. O isə öz növbəsində işi öyrənib, şikayəti haqlı saydıqda, məsul redaktordan izahat tələb edir. Belə şikayətlərə tərəflərin iştirakı olmadan baxılır. Ombudsman əldə etdiyi arqument və faktların əsasında qərar çıxarır. Ombudsman hesab etsə ki, Kodeksin tələbləri cüzi olaraq pozulub, o, sadəcə töhmət elan edir, ciddi şəkildə pozuntu aşkara çıxarıldıqda isə Ombudsman Mətbuat Şurasına şikayət təqdim edir və Şura onun əsasında qərar çıxarır. Şura şikayəti rədd edərsə, ərizəçi özü ikinci dəfə Şuraya müraciət verə bilər. Hərçənd, təcrübədə Şura

Ombudsmanın şikayətini çox nadir hallarda rədd edir.

Şura qəzetə töhmət verdikdə, qəzet mütləq həmin töhməti öz səhifələrində dərc etməli və cərimə ödəməlidir. Cərimə 4 min ABŞ dollarına qədər olur və Şuranın hesabına keçirilir. Yalnız Naşirlər Assosiasiyasına və onun filiallarına üzv olan qəzetlər Şuranın qərarını dərc etmək və cərimə ödəmək öhdəliyi daşıyırlar. Qəzetlərin əksəriyyəti Assosiasiyanın faktiki üzvləridir. Bura daxil olmayan qəzetlər isə mövcud sistemə tabedirlər. Doğrudur, bəzi kiçik jurnallar bu sistemə tabe olmurlar, digərləri, o cümlədən yarıpornoqrafik jurnallar isə ona sadəcə əhəmiyyət vermirlər. Lakin onların davranışı ciddi problem yaratmır, çünki qəzetlərin, demək olar ki, hamısı bu sistemi dəstəkləyir.

Hökumət strukturları, müəssisə və təşkilatlarının da Ombudsmana şikayət etmək hüququ var, lakin onların şikayətləri faktiki səhvin müzakirəsindən kənara çıxmamalıdır. Şikayətçi rolunda çıxış edən belə qurumların əldə edə biləcəyi ən yüksək nəticə cavab dərc etdirmək imkanı qazanmaqdır. Bu cür təşkilatların Mətbuat Şurasının müdafiə sistemindən istifadə etmək imkanları məhdudlaşdırılır, çünki onların mövqeyi böyük təsir gücünə malikdir və həm də öz fikirlərini bildirmək üçün onlar bir çox digər üsullardan istifadə edə bilərlər.

Ombudsmana şikayət verənlər öz qanuni hüquqlarından imtina etmirlər. Nəticədə şikayətçilər Şuranın onların xeyrinə çıxardığı qərarlardan sonradan məhkəmədə istifadə edə bilirlər və bəzi hallarda məhkəmələr öz qərarlarını etik prinsiplər və Şuranın çıxardığı rəylə əsaslandırırlar.

Belə hallar Şuranın rolunu qiymətdən salır, çünki qəzetlərin yaratdıqları könüllü özünütənzimləmə sistemindən məhkəmədə onların özlərinə qarşı istifadə olunduğunu gördükdə, kütləvi informasiya vasitələri bu sistemi maliyyələşdirməkdən imtina edirlər. Bununla belə, Şuranın qərarından sonra məhkəməyə müraciət edilməsi çox nadir hallarda baş verir. Bütövlükdə isə məhkəməyə müraciətlərin sayının azalmasına səbəb olan və Mətbuat azadlığı haqqında Aktda təsbit olunmuş prinsipləri qoruyan Şuranın işi qənaətbəxşdir.

Şura həm mətbuatın, həm də ictimaiyyətin hörmətini





qazanmışdır. Onun bəzi qərarları qızğınlıqla müzakirə olunur və bu səmərəli hesab edilir. Belə özünütənzimləmə mexanizmi jurnalist etikası məsələlərinin müzakirəsinə, bu da öz növbəsində jurnalistikada etik normaların təsdiqinə kömək göstərir.

## DEMOKRATİK ÖLKƏLƏRDƏ MƏTBUATIN ÖZÜNÜTƏNZİMLƏMƏ MEXANİZMLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**Mətbuat şuraları və ombudsmanlar**

Avropa ölkələrindən altısında (Avstriya, Almaniya, Niderland, Norveç, İsveç, Böyük Britaniya) və Avstraliyada mətbuat şuraları var. Kanadada belə orqan yoxdur, lakin beş əyalətin öz şurası, onlardan dördünün isə regional şurası var. Aşağıda yeddi ölkədə fəaliyyət göstərdən mətbuat şuralarının müqayisəli təhlili verilir.

Bu ölkələrin yeddisində də milli şuraların mətbuatla bağlı fərdi şikayətləri araşdırmaq və qərar çıxarmaq səlahiyyəti var. Onlardan bəziləri parlament iclaslarında iştirak etməklə və hökumətə tövsiyələr verməklə mətbuat azadlığını müdafiə edir (Avstraliya və Avstriya). Britaniyanın keçmiş Mətbuat Şurası (1991-ci ildə Mətbuatdan şikayətlər üzrə Komissiya ilə əvəz olunub) bu ikili funksiyanı yerinə yetirdiyinə görə tənqid atəşinə tutulduğu halda, Avstraliyada hətta Şuranın fəaliyyətindən narazı qalan tənqidçilər belə onun ikili rolunda heç bir ziddiyyət görmürlər.

İsveçdə Mətbuat Şurasından əlavə Mətbuat Ombudsmanı da fəaliyyət göstərir. Avstraliyada isə həmin funksiyanı Mətbuat Şurasının İcraçı katibi yerinə yetirir. Onların hər ikisi mübahisələr prosedura uyğun olaraq Şuraya baxılmağa təqdim edilməzdən əvvəl tərəflər arasında vasitəçilik etməyə çalışırlar.

Milli mətbuat şuraları və ombudsmanlar institutu ictimai qurumlar və ictimaiyyət nümayəndələri ilə jurnalistlər arasında mübahisələrin qanunla nizamlanması haqqında çağırışların artmasına cavab olaraq naşirlər və digər mətbuat

təşkilatları tərəfindən birgə yaradılıb.

Mətbuat şuralarının hamısı bu qurumlara daxil olan mətbuat birlikləri tərəfindən maliyyələşdirilir. İsveçdə Mətbuat Şurası qanunu və ya peşə etikası prinsiplərini pozmuş qəzetləri təqribən 4000 ABŞ dolları dəyərində cərimələmək və bu vəsaiti öz büdcəsinə əlavə etmək imkanına malikdir.

Mətbuat azadlığının qorunması və jurnalist məsuliyyətinin artırılması sahəsində mətbuat şuralarının fəaliyyətinin səmərəliliyi barədə üç faktor əsasında nəticə çıxarmaq olar:

1) Şuranın qərarlarının əsasını təşkil edən başlıca etik prinsiplərin həm ictimai və şəxsi maraqları, həm də mətbuatın öz xüsusi funksiyalarını icra edə bilməsi üçün vacib olan maraqları nə dərəcədə tarazlaşdırılmış qaydada müdafiə etməsi;

2) şuranın müəyyənləşdirilmiş standartları na dərəcədə ardıcıllıq və inadkarlıqla tətbiq etməsi;

3) qəzetlərin şuranın qərarları ilə nə dərəcədə razılaşması.

**Mətbuat məcəllələrinin məzmunu**

Mətbuat üzrə 7 milli şuranın əksəriyyəti qərarların qəbulunda rəhbər tutulan məcəllələr işləyib hazırlayıb. Məcəllələrin hamısı aşağıdakı müddəalara toxunur:

1) vicdanlılıq və ədalətlilik; yazı dərc edilməzdən əvvəl istənilən tənqidi məqalənin obyektinin fikrinin öyrənmək vəzifəsi; faktiki səhvləri aradan qaldırmaq vəzifəsi; illüstrasiyanın yanlış və ya əks mənada başa düşülməməsi üçün onu təhrif etməmək vəzifəsi;

2) tənqidi fikirlərə, həmçinin faktlar əsasında hazırlanmış tənqidi yazılara cavab vermək imkanını təmin etmək vəzifəsi;

3) obyektivlik; bəzi məcəllələr mətbuat nümayəndələrinin hədiyyə qəbul etməsini qadağan edir;

4) şəxsi həyatın toxunulmazlığı hüququna hörmət;

5) faktları rəydən fərqləndirmək vəzifəsi;

6) irqi, milli, dini, yaxud cinsi əlamətlərə görə ayrıseçkiliyin qadağan olunması; bəzi məcəllələr KİV-ə yazının obyektinin irqi, dini, yaxud milli mənsubiyyətini xüsusi ehtiyac





olmadıqda xatırlatmaqdan çəkinməyi tövsiyə edir;

7) informasiya əldə etmək üçün şərəfsiz üsullardan istifadə etməmək vəzifəsi;

8) adamları təhlükəyə məruz qoymamaq vəzifəsi;

9) ümumi ədəb və zövq normalarını gözləmək vəzifəsi;

10) məxfi mənbələri açıqlamamaq vəzifəsi;

11) şübhəli şəxsin təqsirkar olması barədə qabaqcadan qərar çıxarmamaq və əvvəllər barəsində ittiham irəli sürülməsi haqqında məlumat verilən şəxs bəraət aldıqda, bu barədə məlumatı da dərc etmək vəzifəsi.

**Üzvlük**

Avstriya və Almaniyadan başqa, qalan bütün ölkələrin şuralarına mətbuatla əlaqəsi olmayan ictimaiyyət nümayəndələri də daxildir (Avstraliyada 21 üzvdən 7-si, Niderlandda 16-dan 8-i, Norveçdə 7-dən 3-ü, İsveçdə 6-dan 3-ü). Avstriyada Mətbuat Şurasının işindən ictimaiyyətin narazı olması, həmçinin onun fəaliyyətinin səmərəsizliyinin əsas səbəblərindən biri orada ictimaiyyət nümayəndələrinin iştirak etməməsi ilə bağlıdır. Üç şuraya (Niderland, İsveç və Avstraliya) hüquqşünaslar sədrlik edirlər.

**Fəaliyyət mexanizmləri**

Mətbuat şuralarının əksəriyyəti yalnız dərc olunmuş məqalədə haqqında birbaşa, yaxud dolayısı yolla danışılan şəxslərdən şikayət qəbul edirlər. Avstriyanın Mətbuat Şurası təkçə zərərçəkənlərə deyil, istənilən şəxsə şikayətlə müraciət etməyə icazə verməsi ilə digərlərindən fərqlənir. Norveçin Mətbuat Agentliyinin Baş katibinin (o, Mətbuat Şurasının üzvü deyil) istənilən məsələ ilə bağlı öz adından Şuraya şikayət vermək hüququ var.

Mətbuat şuralarının əksəriyyəti şifahi dinləmələr keçirir, bu zaman tərəflər şahid təqdim edə bilərlər; İsveç və Böyük Britaniyanın mətbuat şuraları yalnız yazılı materiallar əsasında qərar çıxarırlar.

Mətbuat şuralarının əksəriyyəti iddiaçıları məhkəməyə şikayət ərizəsi verməkdən çəkindirməyə çalışır. Onlar hesab edirlər ki, əks- təqdirdə şurada belə şikayətlərə baxmağa lüzum

qalmaz və KİV-də şuraların çıxapdığı qəpapları tanımamaq meyli yaranar. İsveçdə şikayəti təmin olunmayan iddiaçı məhkəməyə müraciət edə bilər, bu halda məhkəmə qərar qəbul edərkən, şuranın həmin məsələ ilə bağlı rəyini və etik prinsipləri nəzərə alır. Könüllü prosesin nəticələrindən, yəni şuranın qərarından məhkəmədə onlara qarşı istifadə edildikdə, qəzetlər xüsusilə narazı qalırlar, lakin belə halların sayı azdır. Avstraliyada Mətbuat Şurası tələb edir ki, şikayətçi qərardan narazı qaldığı halda məhkəməyə müraciət etməyəcəyi barədə əvvəlcədən sənəd imzalasın. Bu, demək olar ki, həmişə təsirli olur, belə ki, indiyədək çox az iddiaçı şuranın həmin tələbindən narazılıq bildirib və heç kim buna görə məhkəməyə müraciət etməyib.

Şuraların əksəriyyətinin əsas sanksiyası pozuntuya yol vermiş qəzeti istənilən mənfi qərarın dərcinə sövq etməkdir. Burada qəzetlər üçün stimul rolunu assosiasiyanın, yaxud şuranın üzvü olaraq qalmaq, öz nüfuzunu qorumaq və razılaşdırılmış qaydalara uyğun hərəkət etdiklərini ictimaiyyətə nümayiş etdirmək arzusu oynayır. Niderlandda Mətbuat Şurası qərarını öz curnalında çap edir və pozuntuya yol vermiş qəzetdən də həmin qərarın dərcini xahiş edir. Avstraliyada Mətbuat Şurası öz qərarını bütünlüklə deyil, yalnız xülasə şəkilində dərc etməyi qəzetlərin öhdəsinə qoyur.

**Səmərəlilik**

İsveç, Norveç və Niderlandın Mətbuat şuralarının işi daha səmərəli hesab olunur. Onların hər üçünün tərkibinə mətbuatla əlaqəsi olmayan şəxslər daxildir. İsveç və Niderland şuralarına hüquqşünaslar sədrlik edir ki, bu da qəbul edilən qərarların keyfiyyətli olmasına təminat verir, həmçinin presedent rolunu oynaya biləcək mükəmməl standartların yaradılmasına kömək edir. Hər üç şura mətbuata qarşı məhkəmə proseslərinin sayının azaldılması və mətbuat azadlığının qorunması istiqamətində faydalı işlər görür. İri qəzetlərin bu şuraların qərarlarına hörmətlə yanaşması və ictimaiyyətin onlara etimad bəsləməsi sistemin uğurla fəaliyyət göstərməsini təmin edən vacib amillərdəndir (əksinə, Avstriyada Mətbuat Şuransının təsiri nüfuzlu qəzetlərin onun





müəyyənləşdirdiyi qaydalara uyğun hərəkət etməkdən boyun qaçırması nəticəsində ciddi şəkildə sarsılıb). İri naşir birliklərinin şuranı müdafiə etdiyi hər yerdə iri qəzetlər də onun qərarlarına hörmətlə yanaşırlar. İctimaiyyətin isə şuraya hörməti qəzetlərin onun qərarları ilə nə dərəcədə razılaşmasından, həmçinin şuranın işində ictimaiyyət nümayəndələrinin iştirakından birbaşa asılıdır.

Avstraliyanın Mətbuat Şurası mətbuatın məsuliyyətini artırmaq üçün xeyli iş görüb. Lakin naşirlərin Şuranı zəif himayə etməsi və mətbuata qarşı böhtanla bağlı məhkəmə proseslərində hətta vəzifəli şəxslərin də qələbə çalmasını kifayət qədər asanlaşdıran qanunların mövcud olması ucbatından törəyən nöqsanlar bu təşkilatın hesabatlarında öz əksini tapıb.

Mətbuat şuralarının kəsəri həm də ondadır ki, onlar prosesi məhkəmə dinləmələrindən daha sürətlə və daha ucuz həyata keçirir. Digər tərəfdən, bəzi tənqidçilər belə hesab edirlər ki, mətbuat şuralarının tətbiq etdikləri sanksiyalar zəif olduğuna görə onlar mətbuat azadlığının müdafiəsi, yaxud şərəf və ləyaqətin müdafiəsi, şəxsi maraqların qorunması işinə çox az kömək edə bilirlər. Bu arqument Fransa tipli ölkələrdə daha inandırıcı səslənir. Çünki məhkəmə prosesinin nisbətən sadə, sürətli və ucuz olduğu, yaxud böhtanla, şəxsi həyatın toxunulmazlığı ilə bağlı işlərdə iddiaçıya hüquqi yardım göstərildiyi belə ölkələrdə məhkəməyə müraciət etmək hər bir vətəndaşın imkanı daxilindədir.

**Özünütənzimləmənin digər mexanizmləri**

Redaktora məktublar və "Op-Ed pages" adlanan (kənar şəxslərin fikirlərini əks etdirən) məqalələr də alternativ baxışların açıqlanması və redaksiya siyasətinin tənqidi sahəsində getdikcə daha çox populyarlıq qazanan mexanizmdir.

**Devid Pritçard**
*Jurnalistika Məktəbi,*
*İndiana Ştatının Universiteti*

# MƏTBUAT ŞURASININ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN MƏSULİYYƏT SİSTEMİNDƏ ROLU

*"Məsuliyyət muasir jurnalistikanın ən böyük həll olunmamış problemlərindən biridir" (Desbarats, 1990).*

*"Problemin həllində əsas çətinlik ondadır ki, jurnalistlər və alimlər bu məsuliyyəti düzgün anlamaqda çətinlik çəkirlər" (Xristiane, 1989)*

*"Kütləvi informasiya vasitələrinin məsuliyyəti məsələsi hələ də konseptual cəhətdən dolaşıq problem kimi qalmaqdadır" (Dennis və Gilmor, 1989)*

Dennis və Gilmorun xatırlandığı konseptual dolaşıqlığı kütləvi informasiya vasitələrinin məsuliyyəti mexanizminin təcrübədə necə fəaliyyət göstərməsini əsaslı surətdə tədqiq etmədən açmaq olmaz. Bu məqalədə «medianın məsuliyyəti» ifadəsinin mənası cəmiyyətin, yəni KİV məhsulunun istehlakçılarının nöqteyi-nəzərindən araşdırılır; məsuliyyətə məhz mediadan inciyən, ondan şikayətçi düşən adamlar tərəfindən işə salınmış bir prosess kimi baxılır.

Məsuliyyət baxımından KİV-nin fəaliyyətini tənzimləyən mexanizmlər sırasında Mətbuat şuraları xüsusi yer tutur. İndi biz Şimali Amerikanın Mətbuat şuralarının iş təcrübəsinə ümumi bir nəzər salacaq və daha sonra onlardan birində-Kvebek Mətbuat Şurasında bu «məsuliyyət mexanizminin» necə fəalliyyət göstərdiyi haqda danışacağıq. Ümid edirəm ki, Kvebek Şurasının təcrübəsi başqaları üçün də çox yararlı olacaq.





Mənim Kvebek Mətbuat Şurasının (KMŞ) işi haqqında təsəvvürlərim uzunmüddətli müşahidələrimə, müsahibələrimə, həmçinin 1989-cu ilin iyulunadək bu Şurada keçirilmiş 800 prosesin sənədlərinin bircə-bircə araşdırılması nəticəsində gəldiyim qənaətlərz əsaslanır. Mən çoxlu sayda şikayətlər və onlara əsas vermiş faktlarla, şura üzvlərinin şəxsi xatirələri ilə, ilkin qərar layihələri və yekun rəylərlə, şuranın fəal fəaliyyəti ilə əlaqədar mətbuatda gedən yazılarla, yüzlərlə digər sənəd və fayllara tanış olmuşam, bundan əlavə KMŞ-nın bütün gün ərzində davam edən yığıncaqlarında iştirak etmişəm. Qapalı keçirilən belə yığıncaqlar ildə cəmi bir neçə dəfə çağırılır və orada şikayətlərlə bağlı qərarlar qəbul edilir.

**Məsuliyyət**

Nəzərə alsaq ki, məqalənin əvvəlində qeyd etdiyimiz kimi, medianın məsuliyyəti anlayışı konseptual cəhətdən çox zaman düzgün başa düşülmür və dolaşıqdır, onda «məsuliyyət prosesinin» açıqlanmasının və onun ayrı-ayrı elementlərinin dəqiq təsvirinin mühüm əhəmiyyət kəsb etdiyi ilə razılaşarıq.

Medianın məsuliyyəti hər bir jurnalist qurumunun, ayrılıqda hər jurnalistin öz şəxsi fəaliyyəti üçün məsuliyyət daşıdığını qəbul etməsinə və auditoriyanın, informatorların, reklam sifarişçilərinin, yaxud dövlət strukturlarının şikayətçi qismində çıxış etmək hüququnu tanımasına əsaslanmış bir proses kimi izah oluna bilər. Məsuliyyət bir kəsin hərəkətlərinin izahı və yaxud əsaslandırılmasıdır. Məsuliyyətin tələb olunduğu sosial, mədəni və siyasi mühit mediaya güclü təsir göstərir. Jurnalistlər və kütləvi informasiya vasitələri cəmiyyət qarşısında cavabdehlik hissi ilə fəaliyyət göstərməli və öz hərəkətlərini izah etmək tələbi ilə üzləşə biləcəklərini daim xatırlamalıdırlar. Bunlar media məsuliyyəti anlayışının kökündə dayanır.

Media məsuliyyəti sistemi medianın cavabdehliyini müəyyənləşdirən bir neçə prinsip üzərində qurulur. Əlbəttə, Tomas Emersonun yazdığı kimi, bu prinsipləri formalaşdırmaq və yaxud onları qanunun əsas qaydalarına uyğunlaşdırmaq elə də asan məsələ deyil. Təcrübədə medianın məsuliyyəti, yenə də Emersonun sözləri ilə desək, kütləvi informasiya

vasitəsinin hər bir şikayətçinin tələbinə cavab vermək məsuliyyətini qəbul etməsində üzə çıxır. Məsələn, hər hansı nəşrin Afrikada baş verən aclığı çox kasad işıqlandırmasından narazı qalan oxucu qəzetin niyə bu problemə belə az yer ayırdığını bilmək istəyir. Digər halda dinləyici radiostansiyadan yerli xəbərləri az verməsi ilə bağlı izahat bilər. Və yaxud müsahibə vermiş adam 30 dəqiqəlik müsahibənin televiziyada yalnız 10 saniyəlik hissəsinin getməsindən narazı qala bilər. Başqa bir şəraitdə jurnalda günəş vannaları salonunun reklamının yanında dəri xərçəngi haqqında məqalənin çap edilməsindən narazı qalan salon sahibi izahat istəyə bilər.

Yuxarıda göstərilən halların hər birində şikayətçi (oxucu, dinləyici, informasiya mənbəyi və ya reklam sifarişçisi) redaksiyanın fəaliyyəti ilə əlaqədar yaranmış problemi açıqlayır və KİV-ni məsuliyyət anlayışının məhz onun beynində formalaşmış standartlarını pozmaqda günahlandırır (Pritçard, 1987). Redaksiyanın izahı onu məsuliyyətə çağıran şikayətçini qane edə bilər. Qane etmədikdə isə şikayətçi öz tələbini irəli sürə bilər: məsələn, qəzet Afrikadakı vəziyyətə daha çox diqqət yetirsin, radio yerli xəbərlərə daha çox yer ayırsın, televiziya stansiyası müsahibin fikirlərini ixtisar etdiyi üçün üzr istəsin və ən nəhayət, jurnal salon sahibinə növbəti nömrədə pulsuz reklam vermək üçün imkan yaratsın.

Problemin ortaya çıxması, onun yaranmasında media qurumunun günahlandırılması və aradan qaldırılması üçün KİV qarşısında tələb qoyulması jurnalistikada məsuliyyətin ilkin mərhələsini təşkil edir. Bu mərhələdə bütün proseslər subyektiv amillərin təsiri altında olur və qeyri-formal xarakter daşıyır, çox zaman sonda irəli sürülən tələblərin yerinə yetirilməsi ilə nəticələnir.

Bununla belə, bir sıra hallarda media qurumları şikayətçilərin tələblərini yerinə yetirmir. Belə olduqda, öz mövqeyinin düzgünlüyünü sübut etməyə çalışan şikayətçi mübahisəni həll etmək üçün müraciət etməyə forum və ya üçüncü tərəf axtarır. Forum şikayətçinin tələbinin əsaslı olub-olmamasını müzakirə edib hökm çıxarmaq səlahiyyəti olan dövlət qurumudur. Üçüncü tərəf isə mübahisədə maraqları olmayan və baxışları tərəflərdən heç olmasa biri üçün legitim





sayılan şəxs, qrup və ya təşkilat ola bilər.

Qeyd etmək vacibdir ki, bəzi hallarda şikayətçilər forumdan onunla əlaqəli olmayan üçüncü tərəfə, necə deyərlər, çıxış əldə etmək üçün vasitə kimi istifadə edirlər.
Misal üçün, böhtanla bağlı işlərdə şikayətçilərin auditoriyanı media qurumuna qarşı qaldırılmış iddianın doğruluna inandırmaq üçün digər KİV-dən istifadə etməsi kifayət qədər adi hal alıb (Bezanson, Cranberg&Soloski, 1987). Bu zaman forum rolunda məhkəmə çıxış edir, auditoriya isə iddiaçı üçün üçüncü tərəf qismində maraq kəsb edir. Forumlar meydanda qurulmuş rəmzi məhkəmədən tutmuş qanuni məhkəməyə qədər müxtəlif formalarda ola bilər; üçüncü tərəf kimi isə auditoriyadan tutmuş peşəkar hakimlər dəstəsinə qədər müxtəlif qruplar çıxış edə bilərlər.

Bu sxem üzrə mətbuat şurasına şikayət verən şəxs həm problemi müəyyənləşdirir, həm də onun yaranmasında kimi günahlandırdığını (təbii ki, əksər hallarda kütləvi informasiya vasitəsini) göstərir. Bu zaman günahkar hesab olunan tərəfə qarşı konkret tələbin irəli sürülməsi də vacibdir. Mətbuat şuralarının çoxu şikayət ərizəsində belə bir tələb olmadıqda işə baxmaqdan imtina edir. Qoyulan tələb yerinə yetirilmədiyi halda isə şikayətçi Mətbuat şurasının keçirdiyi səsvermənin nəticələrindən istifadə edə bilər. Bu zaman qərar verən Mətbuat şurası üçüncü tərəf sayılır.

**Şimali Amerikada mətbuat şuraları**

Kanadanın doqquz (Saskeçevandan savayı) əyaləti və bir Amerika (Minnesota) ştatı mətbuat şuralarına malikdirlər. Mətbuat şuraları KİV, fondlar, media və ictimaiyyətin nümayəndələrindən ibarət olan üzvlər tərəfindən yaradılır. Mətbuat şuralarının tərəfləri öz qərarlarını yerinə yetirməyə məcbur etmək üçün qanuni qüvvələri olmasa da, onlar media ilə bağlı şikayətləri çox effektiv həll edirlər. Mətbuat şuralarının əsas gücünü nəşrlərin gücü təşkil edir və bu, KİV-ni mətbuat şuralarının qərarlarını dərc etməyə həvəsləndirir.

Şimali Amerikanın mətbuat şuralarının təcrübəsi fərqlidir. ABŞ-da 1973-cü ildə yaradılan Milli Xəbərlər Şurası əslində heç bir işə yaramadı və 1984-cü ildə fəaliyyətini

dayandırdı. Minniesotada kütləvi informasiya vasitələri 1970-ci ildə ştatın xəbərlər şurasını yaratdı, lakin digər bir neçə ştatda buna oxşar təkliflər reallaşmadı. Nəticədə 1990-cı ilin sonunda Minniesota ABŞ-da ən iri mətbuat şurasına malik ştat oldu.

Digər tərəfdən, Kanadada mətbuat şuraları bolluğudur. 1970-ci illərin əvvəlində yaradılan ilk Mətbuat şurası hökumət üçün mətbuatın fəaliyyətinin tənzimlənməsi üzrə təkliflər hazırlamaqla məsul idi. Misal üçün, Ontarioda insan haqlarının tədqiqi ilə məşğul olan əyalət komissiyası 1960-cı illərin sonunda belə nəticəyə gəlmişdi ki, kriminal hadisələrin sensasion qaydada işıqlandırılması müdafiə olunan tərəfin ədalətli məhkəməyə olan hüquqlarını pozur. Komissiya «KİV-nə nəzarət edən və onların işini nizamlayan» mətbuat şurasının yaradılması təklifi ilə çıxış etmişdi.

1970-ci ildə KİV üzrə Xüsusi Senat Komitəsi milli mətbuat şurasının yaradılmasında təkid edərək mediaya təzyiqi artırdı. Təklif edilən mətbuat şurası qeyri-hökumət təşkilatı olmalı idi. Bununla belə media mənsubları hökumətin KİV-nə təzyiqini birbaşa idarə etmək cəhdi kimi qəbul edirdilər. 1971-ci ildə Kanadanın ilk mətbuat şurası - Vindzor Komitəsi - yaradıldı. 1972-ci ildə Ontario və Alberta mətbuat şuraları formalaşdırıldı. Kvebek Mətbuat Şurası isə 1973-cü ildə fəaliyyətə başladı.

Kanadada mətbuat şuralarının yaradılmasının ikinci dalğası 1981-ci ildə Qəzetlər üzrə Kral Komissiyasının hesabatından sonrakı vaxta düşür. Komissiyanın hesabatında «mətbuat şuralarının yaradılmasında və onların fəaliyyətində yaxından iştirak etməyən qəzetlərin uzaqgörən olmamaları» deyilirdi (Royal Commission on Newspapers, 1981, p.226). Komissiyanın hazırladığı Kanada Qəzet Aktında inhisarçı nəşrlərdən birlikdə yerli mətbuat şuraları yaratmaq tələb olunurdu. Bundan əlavə Federal Media Hüquqları Yığıncaqı yaradılmalı idi. Bu qurumun fəaliyyət dairəsinə Kanadada qəzetlərin inkişafını müşahidə etmək və öz müşahidələrini nəşrlər, yaxud hökumət üçün lazımi şərh və məsləhətlər də daxil olmaqla, illik hesabat şəklində dərc etmək vəzifəsi daxil





idi.

Qəzetlər üzrə Kral Komissiyasının bir neçə məsləhətinin qanunlarda öz əksini tapmasına baxmayaraq, federal hökumətə mətbuat şuraları olmayan əyalətlərdə KİV-nin fəaliyyəti ilə əlaqədar şikayətlərə baxmaq üçün federal şura aratmağa imkan verən yeni bir sənəd parlamentə təqdim olundu. Bu mətbuata xəbərdarlıq idi: könüllü surətdə mətbuat şurası yaradın, əks halda dövlət tənzimlənməsi ilə üzləşə bilərsiniz.

Nəticədə mətbuat şuraları olmayan əyalətlərdə də bu quruma maraq oyandı. 1983-cü ildə media mənsubları Britaniya Kolumbiyası, Manitoba və Atlantika əyalətlərində (Nyu Bransvik, Nova Skotiya, Nyufoundlend və Şahzadə Edvard adası) Mətbuat şuraları yaratdılar.

**KİV-nin məsuliyyəti Kvebekin timsalında**

Kvebek hökuməti KİV-lə bağlı mübahisələri çözməyə imkan verən müxtəlif forumlar yaradıb. Məhkəmələr və efir vasitəsi ilə yayınlanan xəbərlərə aid şikayətələrə baxan Kanada radio televiziya və telekommunikasiya komissiyası ilə yanaşı, yerli hökumət eyni zamanda media məsələləri ilə də məşğul olan bir neçə agentlik təsis etmişdir. Məsələn, "Le Conseil du statut de la femme" gender problemləri ilə bağlı iddialara baxır, "l'Office de la protection du consommateur" reklamların düzgün yerləşdirilməməsi ilə əlaqədar şikayətləri həll edir. Şimali Amerikada 35-dən artıq, Kanadada isə 6 qəzetin məsuliyyəti ombudsman vasitəsilə təmin olunur. Mətbuat üzrə ombuds-man oxucular və digər mənbələrdən daxil olan şikayətləri qəbul edir, onlara baxır və beləliklə, «daxildə» üçüncü tərəf qismində çıxış edir. Şikayətçilər məhz ona müraciət edirlər.

Kvebekdə ombudsmanı olan yeganə qəzet "Montreal Gazette"-dir. Bu vəzifə 1981-ci ildə təsis edilib. "Gazette"-nin ombudsmanı məqalələrdə dəyişiklik etmək tələbi qoya bilər. Bəzi hallarda o, qəzeti tənqid edən köşə yazıları ilə çıxış edir. İstər reportyor, istərsə də redaktorların ombudsmanın işini qiymətləndirməsinə, habelə oxucuların ona hörmətlə yanaşmasına baxmayaraq, adətən ombudsmanlar özlərini oxucuların sərt vəkilindən daha çox qəzetlərin ictimai əlaqələndiricisi

rolunda hiss edirlər (Ettema & Glasser, 1987).

Jurnalist məsuliyyəti sistemi həmçinin oxuculardan və digər mənbələrdən daxil olan şikayətlərin həlli ilə bilavasitə əlaqədar olmayan digər mexanizmləri də özündə birləşdirir. Bu mexanizmlərdən biri jurnalistlərin fəaliyyətini tənzimləyən Etika Kodeksidir. Kvebekdə əksər KİV belə kodeksə malikdir. Jurnalistlər bu sənədə hörmətlə yanaşır, çoxları onun tələblərinə əməl etməyə həvəs göstərirlər. Bununla belə, əslində bu kodekslər jurnalistlərin fəaliyyətinə sistematik təsir göstərmək imkanından uzaqdır (Pritchard & Morgan, 1989).

KİV-nin məsuliyyəti sisteminə daxil olan mexanizmlərdən biri də medianın ictimai tənqididir. Bu peşəkar özünütənzimləmə forması da Kvebekdə inkişaf tapıb. Professional jurnalist təşkilatlarının nəşrləri KİV-ni mütəmadi olaraq tənqid edirlər. Bundan əlavə 1979-cu ildən bəri belə nəşrlərdən biri - "Le 30" qəzetinin hər buraxılışında Kvebek Mətbuat Şurasının tənqidçisi Jakqs Quayın mətbuata dair qeydləri dərc olunur. Beləliklə, KMŞ medianın, sonuncu isə hökumətin tənqidçisi rolunda çıxış edir.

**Kvebek Mətbuat Şurası**

1953-cü ildə Britaniya Mətbuat Şurası təsis olunduqdan sonra, 1950-ci illərin sonunda Kanadanın fransızdilli jurnalistlər ittifaqı Kvebekdə Mətbuat Şurası yaratmaq təklifini verdi. O zaman qəzet sahibləri bu təklifin həyata keçirilməsində maraqlı olmasalar da, hər halda naşirlər və jurnalistlər arasında belə bir şuranın strukturu ilə bağlı müzakirələr bütün 60-cı illər ərzində davam etdi. Nəhayət, 1970-ci ildə Şuranın iş prinsipləri haqqında razılıq əldə olundu və 1973-cü ildə Kvebek Mətbuat Şurası fəaliyyətə başladı (Clift, 1981; Gariepy, 1982). Bu gün KMŞ nəinki Şimali Amerikada, bəlkə də dünyada ən dinamik mətbuat şurası sayılır.

Mətbuat şurasının 19 üzvü var, onlardan altısı mətbuatı idarə etmə orqanlarının (yəni, sahibkar naşirlərin), altısı kütləvi informasiya vasitələri qurumlarının (yəni, jurnalistlərin), altı nəfəri isə ictimaiyyətin nümayəndələridir.

Birinci cədvəl məhkəmələr və KMŞ-sı arasındakı bir neçə vacib fərqi açıqlayır:





**Məhkəmələr və Kvebek Mətbuat Şurasının xüsusiyyətləri**

| ***Xüsusiyyətlər*** | ***Məhkəmələr*** | ***Mətbuat Şurası*** |
|---|---|---|
| *Şikayət etmək qaydaları* | Məhdud | Geniş |
| *Media ilə bağlı işlərdə səlahiyyətləri* | Məhdud | Geniş |
| *Prosedur qaydaları* | Dəqiq | Kifayət qədər yumşaq |
| *Vəkillərin iştirakı* | Demək olar ki, həmişə | Hərdən |
| *Şikayətin dəyəri (prosesə çəkilən xərc)* | Kifayət qədər yüksək | Aşağı |
| *Qərar qəbul edənlərin ədaləti* | Var | Tam yox |
| *Mümkün sanksiyalar* | Cərimə, həbs | İctimaiyyətə açıqlama |
| *Qərarların qanuni məcburetmə qaydası* | Mövcuddur | Yoxdur |
| *Yurispridensiyanın əhatə etdiyi ölkə* | İndeksləşdirilib | İndeksləşdirilməyib |

Ümumilikdə Mətbuat Şurası məhkəmələrdən fərqli olaraq daha geniş səpkidə şikayətləri qəbul edir. Məhkəmələr isə bir qayda olaraq yalnız mübahisələrdə bilavasitə iştirak edən şəxs və təşkilatların şikayətlərini qəbul edir. Məsələn, Kvebekin Mülki Məcəlləsinin 1053-cü maddəsində göstərilir ki, hər hansı bir şəxs ona qarşı edilən hərəkətdən zərər çəkdiyini güman etdiyi halda məhkəməyə müraciət edə bilər. Əlbəttə, bu zaman zərər törədilmiş hərəkətlə birbaşa əlaqəli olmalıdır. KİV-nin hər hansı bir hadisə və ya mövzunu işıqlandırmasından narazı qalan adam məhkəməyə iddia ilə müraciət etməzdən əvvəl şəxsən özünün birbaşa və ya dolayısı ilə şərəf və ləyaqətinin alçaldıldığını təsdiq edə bilməlidir.

Yalnız qəzetlərə (və yalnız şuranın üzvü olan nəşrlərə) qarşı şikayətləri qəbul edən Kanada Mətbuat Şurasından fərqli olaraq, Kvebek Mətbuat Şurası istənilən KİV-nə, o cümlədən KMŞ-nın üzvü olmayanlara qarşı iddiaları qəbul edir. Bundan əlavə KMŞ peşə fəaliyyəti ilə əlaqədar özlərini təhqir olunmuş sayan jurnalistlərdən də şikayətləri qəbul edir. Nəhayət, KMŞ Şimali Amerikada kənardan maliyyə asılılığı olmayan ən müstəqil Mətbuat Şurası hesab olunur.

Qəzetlər üzrə Kral Komissiyası KMŞ-nı Kanadada ən mükəmməl formaya malik şura hesab edir (Royal Commission on Newspapers, 1981, p.226). Dünyanın bütün Mətbuat şuralarının fəaliyyətini təqdiq edən fransız alimi Jan-Klod Bertrand da KMŞ-nın strukturunun ideal standartlara uyğun gəldiyini bildirib (Bertrand, 1985).

Kvebek Mətbuat Şurasının əsas fəaliyyəti tam və dürüst məlumatları əldə etmək sahəsində mövcud olan ictimai qaydaların, həmçinin mətbut azadlığının pozulması ilə bağlı şikayətlərə baxmaqdan ibarətdir. KMŞ-nın hər il çoxlu sayda müraciətlər üzrə qərarlar çıxarmasına baxmayaraq, bu qurumun nə həmin qərarları tərəflərə məcburi surətdə qəbul etdirmək üçün qanuni əsasları, nə də günahkarlara qarşı sanksiyalar tətbiq etmək hüququ yoxdur. KMŞ öz qərarlarını geniş şəkildə yayır və etik prinsiplərin pozulmasına dair məlumatların ictimaiyyətə çatdırılmasının jurnalistlərə və nəşrlərə təsir göstərəcəyinə ümid edir.

İlk vaxtdan ehtimal olunurdu ki, KİV-nə qarşı iddia irəli sürən şəxslər daha çox məhz Mətbuat Şuralarına müraciət edəcəklər (Farrar, 1986; Henry, 1989). Məsələ bundadır ki, belə mübahisələri həll etmək sahəsində mətbuat şuraları məhkəmələrlə müqayisədə daha cəlbedici xüsusiyyətlərə malikdirlər (O'Malley, 1987). İnsanları mediadan narazı salan və onları məhkəməyə iddia hazırlamaqdansa, mətbuat şuralarına şikayət etməyə sövq edən səbəbləri başa düşmək üçün Kvebek Mətbuat Şurasının təcrübəsindən bir neçə spesifik misal gətirək. Bu misallar məhkəmələrin və mətbuat şuralarının konkret sahədə fəaliyyətlərini müqayisə etməyə imkan verəcək.





Digər tərəfdən KMŞ hər bir kəsə şikayət etmək üçün imkan yaradır. Şura «özlərinin informasiya almaq hüquqlarının pozulduğunu iddia edən şəxslərdən, qrup və təşkilatlardan» da şikayətlər qəbul edir. Şura hesab edir ki, aşağı keyfiyyətli və ya yarımçıq-çaşdırıcı məlumat informasiya istehlakçılarına zərər yetirir və onların bundan şikayət etmək

Konkret işlərə (şikayətlərə) münasibətdə məhkəmələrlə mətbuat şuraları arasında daha bir fərq özünü göstərir. Əgər hər hansı şəxsin məhkəmə iddiası qaldırmaq üçün əlində kifayət qədər əsası varsa belə, o, öz şikayətini qanunun bütün tələblərinə . uyğun formalaşdırmalıdır. Mətbuat şurasına müraciət etmək üçün isə etik qaydaların və ya zövqlərin pozulması halları da əsas ola bilər. Digər tərəfdən, KMŞ-na verilən şikayətlərin böyük qismi böhtan və təhqirlə bağlı qanun sərhədlərinin keçilməsi ilə əlaqədardır. Şikayətlər daha çox reklam xarakterli xəbərlərlə, KİV redaktorunun onun adına gələn məktubu dərc etməkdən imtina etməsi ilə, xəbərlərdə yol verilən xətalarla, jurnalistlər arasında maraqların münaqişəsi ilə və etnik stereotiplərin təbliği ilə bağlı olur.

Beləliklə, KMŞ-nın müzakirə obyekti hesab etdiyi mübahisəli məsələlərin dairəsi məhkəmələrlə müqayisədə daha genişdir. Buna rəğmən, şuranın səlahiyyətlərinin sərhədləri uzun illər mübahisə mövzusu olmuşdur. Məsələn, 1984-cü ildə KMŞ-na bələdiyyə hakimiyyətinin çap etdiyi bir bülleten haqqında şikayət daxil olmuşdu (Le parti civique de Val-Belair c. L'impact de Val-Belair, 1984). Jakqs Quay "Le 30"-da jurnalistikanın bu şikayətlə əlaqədar qərarını tənqid etmişdi. Quay yazırdı ki, adı çəkilən bülletenin funksiyası bələdiyyə hakimiyyətinin ictimai əlaqələrini həyata keçirməkdir və buna görə də onunla bağlı məsələlər KMŞ-nın səlahiyyətinə aid olmamalıdır (Quay, 1984). Bir il sonra Şuraya Monrealdakı Konkordia Universitetinin tələbə qəzetində çıxan bir hekayədən də şikayət daxil oldu. Universitet qəzetinin bələdiyyə tərəfindən çap olunan bülletenlə müqayisədə daha çox jurnalist məhsulu olmasına baxmayaraq, KMŞ-nın üzvü Andre Baudet şuranın bu şikayətlə bağlı qərar çıxarmaq səlahiyyətini də şübhə altına aldı.

1970-ci ildə Kvebekdə qəzet işçiləri ilə rəhbərlik

arasında çəkişmənin qızğın vaxtında Mətbuat Şurasına daxil olan şikayətlərin böyük əksəriyyəti məhz həmin mübahisəyə aid idi. KMŞ də tez-tez belə şikayətləri qəbul edir, onların həlli üçün öz səlahiyyətlərindən istifadə etməyə çalışırdı. Son nəticədə bu, media rəhbərlərinin narahatlığına gətirib çıxardı. KMŞ-nın büdcəsinin böyük qismi media sahibkarlarının ödəmələri hesabına formalaşır. Belə olan halda sahibkarlar KMŞ-nın gələcəkdə də onların daxili işlərinə qarışacağı təqdirdə, Şuranın fondunun taleyinin sual altında qalacağı barədə xəbardarlıqla çıxış etdilər.

1985-ci ildə bir qrup qadın Radio-Kanadanın jurnalistindən bir debatda iştirak etməyi xahiş etdi. Radio-Kanada jurnalistə həmin tədbirdə iştirak etməyə icazə vermədi və bunun maraqların toqquşmasına səbəb ola biləcəyini bildirdi. Jurnalistin şikayətinə əsasən KMŞ qərar çıxardı və elan etdi ki, jurnalistlər də başqaları kimi ictimai tədbirlərdə iştirak etmək hüququna malikdirlər, lakin onlar belə tədbirlərə KİV-nin (konkret halda Radio-Kanadanın) nümayəndəsi kimi dəvət olunmamalıdır (Gisele Lalande c. La Societe Radio-Canada, 1986). Bu qərardan narazı qalan Radio-Kanadanın informasiya şöbəsinin direktoru Pierre Onil Şuraya apellyasiya ərizəsi verdi. Onun 28 may 1986-cı il tarixli məktubu kəskin tonda yazılmışdı. Radio-Kanada KMŞ-nın maliyyə fondunu formalaşdıran qurumlardan biri idi. Lakin buna baxmayaraq, Şuranın müvafiq komissiyası apellyasiyasını geri qaytardı.

80-cı illərin sonuda KMŞ öz səlahiyyətlərinin çərçivəsini daraltmağa meyl etməyə başladı. Həmin vaxtlar rəhbərliklə mübahisə etmiş bir jurnalist buna görə işdən çıxarıldığı üçün KMŞ-na şikayət etmişdi. Şura qərara almışdı ki, şikayət etik problemlərdən daha çox işçi-rəhbər münasibətlərinə aiddir və onu baxılmadan geri qaytarmışdı (Eddy Verbeeck c. Michel Matteau, L'Hebdo du Saint-Maurice, 1988).

Məhkəmələrlə şuralar arasında üçüncü vacib fərq prosedur fərqidir. Məhkəmə prosesləri mülki prosedurun kompleks qaydaları ilə idarə olunur. Mətbuat şuraları isə daha yumşaq prosedurlara malikdir. Mətbuat şuraları ilə müqayisədə qaydaların daha mürəkkəb olduğu məhkəmələrdə





tərəflər vəkillər vasitəsilə təmsil olunurlar. Mətbuat şuralarında isə bir qayda olaraq tərəflər birbaşa təmsil olunurlar. Bu qaydadan istisna çox nadir hallarda baş verir. Kvebekdə belə hallardan ən mühümü üç gündəlik (Le Journal de Montreal, Le Journal de Quebec, və The Sherbrooke Record) və çoxlu sayda həftəlik qəzetlərə malik nəhəng konqlomerat - Kuibekorun işi ilə əlaqədar baş vermişdir. Son illər Kuibekorla bağlı bütün işlər korporasiyanın özündə işləməyən bir monreallı vəkil tərəfindən aparılıb.

KMŞ dinləmələr zamanı prosedurun sadəliyini qorumağa, qərəzsizlik qaydalarına və fundamental ədalət prinsiplərinə hörmət etməyə çağırır. 1990-cı ilə qədər KMŞ-da Kuibekorun vəkili olmuş C.Serge Sassevil isə tez-tez işi həftələrlə uzadan yeni dəlillərlə çıxış edir, proseduru mürəkkəbləşdirən tələblər irəli sürürdü. Məsələn, 1988-ci ildə KMŞ-na "Le Journal de Monteal"-dakı diskriminasiya xarakterli başlıqla bağlı şikayət daxil olmuşdu. Həmin başlıqda fransız və ərəb dilli valideynlərin orta məktəblərdə dil qaydaları ilə bağlı fikirləri ifadə olunurdu. Şikayətin bilavasitə məqalənin başlığı və mətni ilə bağlı olmasına baxmayaraq, Sassevill bir neçə dəfə KMŞ-nın üzvlərindən şikayətçi haqqında əlavə məlumat toplamağı xahiş etmişdi. Elə belə halları nəzərə alaraq Minneapoldakı "Tribune" qəzetinin ombudsmanı və sonradan Birləşmiş Ştatların Milli Xəbərlər Şurasının həmsədri olmuş Riçard Kuninqam yazırdı ki, jurnalistlərlə bağlı mübahisələr vəkillərin əlinə keçəndə, taktiki məsələlər önə çıxır və həqiqətin açıqlanması çox çətinləşir (Junningham, 1989, p. 59).

Məhkəmələr və mətbuat şuraları arasında beşinci mühüm fərq qərar qəbul edənlərin kimliyi ilə əlaqədardır. Məhkəmədə bu rolda prosesdə marağı olmayan hakim çıxış edir. Prosesin başlanğıcında və ya gedişində hakimin tərəflərlə bağlı hər hansı marağı üzə çıxarsa, o, işdən imtina edir və ya kənarlaşdırılır. Məsələn, qəzeti nəşr edən şirkətin səhminə malik olan hakimə həmin qəzetə qarşı qaldırılan iddiaya baxmaq imkanı verilməyəcəyini əvvəlcədən proqnozlaşdırmaq mümkündür.

Mətbuat şuralarına gəldikdə isə burada qərar çıxaran

şəxslərin bir qisminin KİV-nin nümayəndələri olduğu bəri başdan məlumdur və onların mediaya qarşı şikayətlərin çözülməsində nə dərəcədə qərəzsiz ola biləcəkləri sual doğurur. Ona görə də burada maraqların tarazlaşdırılması kimi səmərəli bir prinsip tətbiq olunur. Məsələn, Kvebek Mətbuat Şurasında şikayətlərlə bağlı qaydaları müəyyənləşdirən heyət KİV tərəfindən təyin olunan üç nəfər, idarəedici təşkilatlar tərəfindən təyin olunan üç nəfər və ictimaiyyəti təmsil edən üç nəfərdən ibarətdir.

KMŞ komitə üzvlərindən onların təmsil etdiyi kütləvi informasiya vasitələrinə qarşı şikayətlərə baxıldıqda, bu şəxslərin müzakirələrdən kənarda qalmasını tələb etmir, bununla belə, təcrübədə bu həmişə baş verir. Bu fakt KMŞ-nın özü-özünü tənzimləyən peşəkar qurum, ümumilikdə jurnalistikanın muxtariyyətini həm genişləndirə, həm də lazım olduqda məhdudlaşdıra bilən qərarlar çıxarmağa qabil bir təşkilat olduğunu göstərir.

Bununla belə, KMŞ şikayətçilərdən onun üzvlərinin qərəzli mövqeyi ilə bağlı çoxlu məktublar alır. Məsələn, bir qrup vətəndaş yerli qəzetin onların press-relizinin çapından imtina etməsi ilə əlaqədar şikayət verdiyi halda, Şura qəzetin tərəfini saxlayır. Həmin qrupun rəhbəri isə Şuranın bu mövqeyinin onu təcübləndirmədiyini yazır (Regroupement des citoyens de Lachine c. Le Messager de Lachine, 1985). Oxşar fikirlərə digər uğursuz şikayətçi Julian Samuelin məktubunda da rast gəlmək olur: «İnsanların sizin ciddiliyinizə olan inamı getdikcə azalır, çünki ümumilikdə mediyanı və jurnalistləri daim müdafiə etdiyiniz göz önündədir» (Julian Samuel c. Derek Conlon, The Concordian, 1985).

Məhkəmələrlə mətbuat şuraları arasında altıncı mühüm fərq onların sanksiyalar tətbiq etmək səlahiyyəti ilə bağlıdır. Məhkəmələr cərimə, cinayət hallarında isə həbs cəzası kəsə bilərlər. Onların hökmləri qanuni qüvvəyə malikdir və bu hökmlərin icrası məcburidir. Mətbuat şuraları isə öz qərarlarını dərc etdirməklə belə ictimai açıqlamanın qeyri-etik hərəkətə yol vermiş tərəfi gələcəkdə belə davranışdan çəkinməyə vadar etməsinə çalışırlar. KMŞ bunu mənəvi təsir (hakimiyyət) adlandırır.





**Nəticələr**

Mətbuat şuralarının təcrübəsi öz-özlüyündə göstərdi ki, KİV-dən şikayətçi olan insanların əksəriyyəti onu daha çox böhtan atmaqda günahlandırır və bunun əvəzində pul kompensasiyası almağa deyil, əsasən öz reputasiyalarını bərpa etməyə çalışırlar. Bundan əlavə, böhtanla bağlı mübahi-sələrin həlli üçün adamlar məhkəməyə üz tutmaqdansa, Mətbuat şurasına müraciət etməyi üstün tuturlar (Bezanson, Cranberg, & Soloski, 1987).

Bu onu göstərir ki, Mətbuat şurasının səmərəli fəaliyyəti böhtandan zərər çəkən şəxsləri qane edə bilər. Yuxarıda qeyd etdiyimiz kimi, Mətbuat şurası məhkəmələrlə müqayisədə daha çevik və ucuzdur, gəlir və problemin daha geniş spektrini əhatə etməklə daha çox adamdan şikayət qəbul edə bilir. Mətbuat şurası günahkarları cərimələmək və ya həbs etmək iqtidarında olmasa belə, demokratik Amerika düşüncə tərzinə əsasən, şikayətçilər səhvə yol vermiş medianı cərimələməkdən və ya başqa üsulla cəzalandırmaqdan daha çox, mətbuatda çıxış etmək və bu yolla pozulmuş hüquqlarını, belə demək mümkünsə, ictimai qaydada bərpa etmək imkanı qazanmağa üstünlük verirlər.

Təcrübədə mətbuat şuralarının fəaliyyəti .ilə bağlı cəmiyyətdə hələ də müzakirə olunan iki mühüm məsələ ortaya çıxır. Həmin problemlər bu günədək Şimali Amerikada öz aktuallığını saxlayır. Bunlardan birincisi Mətbuat şurasının qərəzsizliyi ilə bağlı məsələdir ki, bu da şurada təmsil olunmuş şəxslər və onu maliyyələşdirən təşkilatlarla birbaşa əlaqədardır.

Məsələn, Kvebek Mətbuat Şurasının 19 üzvündən 12-si KİV və ya naşirlərin təşkilatları tərəfindən təyin olunmaqla, medianı təmsil edir. Şuranın büdcəsinin 80%-dən çox hissəsi KİV tərəfindən formalaşdırılır. Bu faktın özü ictimaiyyətdə müəyyən suallar və şübhələr doğurur. Məsələn, 1988-ci ildə KMŞ-nın aldığı şikayətlərin 63 faizi medianın xeyrinə həll olunduğu üçün şikayətçilər Şuranı bunda günahlandıra bilərlər. Bununla belə, KMŞ-nın da əlində jurnalist işinin ictimai məna kəsb etməsi və jurnalistikanın məhz ictimai nəzarəti həyata keçirməsi kimi güclü faktor var.

Luis Falardu və Quay kimi bəzi mütəxəssislər KMŞ-nın mediadan asılılığını aradan qaldırmaq və bu təşkilata ictimaiyyətin daha çox nümayəndəsini cəlb etmək üçün Şuranın dövlət tərəfindən maliyyələşdirilməsinə çağırırlar (Falardeau interview, 1990; Guay, 1990). Lakin belə təkliflər media tərəfindən kəskin müqavimətlə qarşılanır.

Həll olunmamış ikinci problem mətbuat şuraları tərəfindən KİV-nin fəaliyyətinin məsuliyyət sərhədlərinin müəyyənləşdirilməsidir. KMŞ öz qərarlarının qeydiyyatını aparmaq və ümumiləşdirmək sahəsində qarşılaşdığı çətinliklər ucbatından bu qərarlardan presedent hüququ qaydasında istifadə etmək üçün onların nəşrini təşkil edə bilmir və yalnız Şimali Amerika mətbuat şuralarının etik prinsipləri məcmuəsinin dərcinə nail olmuşdur (Les Droits et responsabilites de la presse).

Etik prinsiplərin formalaşdırılmasının əhəmiyyətini azaltmaq lazım deyil. Bu prinsiplər əvvəlcədən müəyyənləşdirilmədən jurnalistlər və KİV məhsulunun istehlakçıları arasında münasibətləri tənzimləmək çox çətindir və hər dəfə təcrübədən çıxış edərək KİV-nin məsuliyyətinə dair yeni prinsip yaratmaq lazım gəlir. Ümumilikdə, mətbuat şuralarının həm də maarifçilik və hətta peşə təhsili sahəsində vacib rol oynadığı da unudulmamalı və bu səbəbdən etik prinsiplər məsələsinə daha çox diqqət yetirilməlidir.

Əgər Kvebek Mətbuat Şurası olmasaydı, yaxud 1970-ci ildə media sahibkarlarının və naşirlərinin tutduğu mövqe üzündən Şuranın başının üstünü almış dağılmaq təhlükəsi reallaşsaydı, həm cəmiyyət, həm də mətbuat uduzmuş olacaqdılar. KMŞ-nın Kvebekdə jurnalistikanın keyfiyyətinə təsirini nəzərə almasaq belə, qeyd etmək lazımdır ki, 1973-cü ildən bəri Şura yüzlərlə narazı oxucu, dinləyici və tamaşaçı ilə kütləvi informasiya vasitələri arasındakı mübahisənin məhkəmədənkənar qaydada səmərəli həllini təmin etmişdir.

*(Bu tədqiqat Kanadanın Daxili İşlər Departamenti, İndiana Tədqiqatlar Universiteti və İndiana Universitetinin Media üzrə Tədqiqatlar Bürosu tərəfindən dəstəklənib)*





# TÜRKİYƏNİN MƏTBUAT ŞURASI

Türkiyədə Mətbuat Şurasını ölkənin "daha azad və daha nüfuzlu mətbuata qovuşması" məqsədini güdən ən fəal jurnalistləri yaratmışlar.

Hazırda Türkiyə Mətbuat Şurasının sədri olan Oktay Ekşinin dəvəti ilə 1986-cı ildə jurnalistlər bir araya gələrək yuxarıda göstərilən məqsədə nail olmaq üçün 9 nəfərlik bir işçi qrupu yaratdılar. Hər həftənin şənbə günü işçi qrupun iclası keçirilirdi. Mətbuat Şurası yaratmaq ideyasını dəstəkləyən jurnalistlər bir çox ölkələrdə fəaliyyət göstərən müvafiq təşkilatların işinin incəliklərini öyrəndikdən sonra təsis etməyə hazırlaşdıqları qurumun statusunu müəyyənləşdirdilər, bu barədə ölkənin 294 aparıcı jurnalistinə məlumat göndərərək onlardan məsələyə münasibət bildirməyi və öz təkliflərini işçi qrupa göndərməyi xahiş etdilər. Gələn təkliflər nəzərə alınmaqla təşkilatın təsis qaydası müəyyən olundu. Bir çox ölkələrin mətbuat işçilərinin Peşə Əxlaqı kodeksləri əsasında Türkiyə jurnalistləri üçün məqbul bir variant hazırlamaq vəzifəsi Oqtay Ekşinin üzərinə qoyuldu. Beləliklə, həm Mətbuat İşçilərinin Peşə Əxlaqı Kodeksi, həm də Şuranın Əsasnaməsi hazırlandı. Daha sonra bu sənədlər 400 jurnalistə ünvanlandı. Onlardan «təklifinizi qəbul edir və təsisçi qismində Şuranın üzvü olmaq istəyirəm» deyən 141 jurnalist 6 fevral 1988-ci ildə İstanbulda toplantı keçirib Mətbuat Şurasının yaradılmasına dair qərar çıxardı.

Mətbuat Şurasının heç kimə tabe olmaması və təzyiq altına düşməməsi üçün işçi qrup onun müstəqil qurum kimi təsis edilməsi variantını seçdi.

Mətbuat Şurasının yaranması heç də türk jurnalistikasında yeni prinsiplərin bərqərar olması demək deyildi. Sadəcə olaraq uzun illərdən bəri peşəkar jurnalistlərin vacib bildiyi və hörmət etdiyi qaydalar yazılı şəklə salındı və onların müdafiəsində dayanmış xüsusi qurum yaradıldı.

Türkiyə Mətbuat Şurasının bünövrəsini qoymuş jurnalistlər Mətbuat İşçilərinin Peşə Əxlaqı Kodeksinin giriş hissəsində bütövlükdə problemə baxışlarını aşağıdakı qaydada ifadə etmişlər: «Hər zaman və hər yerdə mətbuat azadlığının məhdudlaşdırılmasına qarşı çıxacağımıza azad iradəmizlə söz verərək... Mətbuat İşçilərinin Peşə Əxlaqı Kodeksinin şərtlərinə əməl etməyi, lazım bildiyimiz məlumatı cəmiyyət qarşısında açıqlamağı əsas məqsədimiz hesab edirik». Mətbuat Şurasının öhdəsinə isə kütləvi informasiya vasitələri və ya jurnalistlərin materiallarının, həmçinin mətbuatla bağlı hər hansı hadisənin həmin kodeksin tələblərinə zidd olub-olmadığını (material və ya hadisə ilə əlaqədar şikayət verildiyi hallarda) araşdıraraq qərar çıxarmaq, bu qərarı ictimaiyyətə çatdırmaq vəzifəsi qoyulurdu.

Mətbuat işçilərinin Peşə Əxlaqı Kodeksini qəbul edən, bu sənəddə əks olunmuş prinsiplərin qorunmasına və həyata keçirilməsinə çalışan jurnalistlər, mətbuat orqanları (qəzetlər, jurnallar, xəbər agentlikləri, radio və televiziyalar) və jurnalist qurumları (dərnək və birliklər) könüllü surətdə Türkiyə Mətbuat Şurasına üzv ola bilərlər.

Bu kodeksi və Mətbuat Şurasının Əsasnaməsini qəbul etməsi barədə sənədə imza atan jurnalist, kütləvi informasiya vasitəsi və ya jurnalist təşkilatı həmin sənədi Şuraya təqdim etdiyi andan etibarən (xüsusi qaydaların nəzərdə tutulduğu hallar istisna olmaqla) Şuranın üzvü hesab olunur.

Türkiyə Mətbuat Şurasının iki əsas orqanı vardır:

*1) Mətbuat Şurasının Üzvlər Orqanı*

*2) Mətbuat Şurasının Ali Orqanı*

Mətbuat Şurasının bütün üzvlərinin, ictimaiyyətin, habelə Şuranın Əsasnaməsində göstərilmiş idarə və qurumların nümayəndələrindən ibarət Üzvlər Orqanı bu təşkilatın əsas orqanıdır. MŞ-nın Üzvlər Orqanının ümumi yağıncağı ildə bir dəfə, əsasən mart ayında çağırılır. Burada Şuranın fəaliyyəti ilə əlaqədar bütün məsələlərə baxıla bilər.

Mətbuat Şurasının Üzvlər Orqanı tərəfindən 3 illik müddətə Şuranın Ali Orqanı formalaşdırılır. Ali Orqan gizli səsvermə yolu ilə seçilən 8 jurnalist və 8 ictimaiyyət nümayəndəsindən, habelə Mətbuat Şurasının Əsasnaməsində





qoyulmuş qaydalara uyğun olaraq müəyyən idarə və təşkilatlardan göndərilən «təmsilçilərdən» ibarətdir.

Mətbuat Şurasının Ali Orqanı (MŞAO) Üzvlər Orqanının müstəsna səlahiyyətinə aid olan məsələlərdən başqa bütün məsələlər üzrə Şuranın adından qərarlar verir. O, Türkiyədə mətbuat azadlığını qoruyur və Peşə Əxlaqı Kodeksinin pozulmasına dair şikayətlərə baxır. Bu şikayətlərə dair Ali Orqan «onların əsassız olması», «əlavə olaraq ciddi surətdə araşdırılması», təqdim edilən dəlillər yetərli olduğu halda isə «günahkarın elan edilməsi» haqqında qərar çıxara bilər.

MŞAO Şuranın Üzvlər Orqanı tərəfindən hər üç ildən bir gizli səsvermə yolu ilə seçilən 8 jurnalist və 8 ictimaiyyət təmsilçisindən, habelə Şuranın üzvü olan və gündəlik orta satışı 100 min nüsxəni ötən mətbuat orqanlarının, beynəlxalq aləmdə yayınlanan radio və televiziya kanallarının, jurnalist dərnəkləri və birliklərinin nümayəndələrindən ibarətdir. Kütləvi informasiya vasitələri və jurnalist qurumları Şura üzvü olduqları bütün müddət ərzində Ali Orqana nümayəndə göndərmək hüququna malikdirlər. MŞAO-na seçilmiş digər şəxslərin üzvlük müddəti isə 3 ildir. Təkrar seçilmək mümkündür.

Türkiyədə dərc olunan hər qəzet və fəaliyyət göstərən hər jurnalist haqqında istənilən şəxs şikayətə səbəb olmuş hadisənin törədildiyi gündən etibarən 2 ay ərzində Mətbuat Şurasına müraciət edə bilər. Şuraya şikayət təqdim edərkən rüsum ödənilməsi tələb olunmur. Eyni mətbuat orqanı və ya jurnalist haqqında həm məhkəməyə, həm də Mətbuat Şurasına şikayət vermək mümkündür. Belə ki, Şuranın şikayətlə bağlı çıxardığı qərarlar qanuni qüvvəyə malik deyildir. Məsələn, Mətbuat Şurasının təqsirkar hesab etdiyi jurnalist sonradan məhkəmədə qanuni qaydada bəraət qazana (və ya əksinə) bilər. Lakin təcrübədə belə hallara çox az-az rast gəlinir. Şikayətə səbəb olmuş hadisədən 2 aydan çox keçmədiyini göstərən sənədi və şikayətin məğzinə dair əldə olan sübut və dəlilləri təqdim etməkdən savayı, Ali Orqan müraciət edənlər qarşısında heç bir tələb qoymur.

Mətbuat Şurası şikayətlər üzrə həm ittiham olunan

jurnalistlər və kütləvi informasiya vasitələri əleyhinə, həm də mətbuat orqanlarını və ya jurnalistləri təqsirkar hesab edənlərin özlərinə qarşı qərarlar verə bilər.

Mətbuat Şurasının Ali Orqanı ən az 7 üzvün iştirak etməsi ilə iclas keçirə bilər. Qərarlar adi səs çoxluğu ilə qəbul edilir.

Əgər Ali Orqanın bir üzvü və ya onun nümayəndəsi olduğu mətbuat orqanı (yaxud qrupu) haqqında şikayət verilərsə, onda bu cür şikayət Şuranın İcraçı katibi tərəfindən ümumi qaydada qəbul edilir və araşdırılır. Ancaq qərar jurnalist, yaxud mətbuat orqanı (və ya mətbuat qrupu) təmsilçisinin iştirakı olmadan çıxarılır. Ali Orqan lazım bilirsə, qərar qəbul etməzdən öncə tərəfləri dinləyir.

Əgər kimdəsə Mətbuat Şurasının işə ədalətlə baxacağına şübhə yaranmışdırsa, onda həmin şəxs Şuranın Baş İdarəsinə müraciət edə və Ali Orqanın üzvlərindən ən çoxu 3 nəfərin iclasda iştirak etməməsini və səs verməməsini tələb edə bilər. Belə tələb mütləq əsaslandırılmalıdır. Ali Orqan bu tələbi qəbul edib-etməməkdə sərbəstdir.

Mətbuat Şurasının üzvləri Şuranın iclaslarında öz adlarından çıxış edir və səs verirlər. Belə ki, iclaslarda iştirak və səsvermə zamanı onların öz vicdanları xaricində hər hansı təsir altına düşməməsi əsas şərtlərdən biridir.

Qeyd etmək lazımdır ki, Ali Orqan heç də Şuraya daxil olmuş hər şikayətə dair qərar qəbul etmir. Əvvəlcə İcraçı katib verilən şikayətin «aidiyyatı üzrə olub-olmadığını» şəxsən araşdırır. Şikayət lazımi qaydada tərtib olunmamışdırsa, o, çatışmazlıqların aradan qaldırılması üçün müraciət edən şəxsə məsləhətlər verir. Əgər bu mümkün deyilsə (məsələn, şikayətçi artıq gecikmişdirsə, yəni hadisənin üstündən 2 aydan artıq vaxt keçmişdirsə), o, şikayəti qəbul etmir.

Şikayət aidiyyatı üzrə oduqda və vaxtında təqdim edildikdə İcraçı katib şikayətçi ilə «cavabdehi» barışdırmağa səy göstərir. Əgər o, tərəfləri razı sala bilirsə (məsələn, qəzet şikayətçinin təkzib tələbini mübahisəsiz yerinə yetirirsə), özü şikayətə xitam verir.

İcraçı katib tərəfləri barışdıra bilmirsə, yaxud şikayətin məzmunu buna yol vermirsə, məsələ ilə bağlı araşdırma aparır,





sübutların təqdim olunmasını istəyir. Şikayətin Mətbuat İşçilərinin Peşə Əxlaqı Kodeksinin tələblərinə uyğunluğunu dəyərləndirib, bu əsasda təqdimat hazırlayaraq, onu Şuranın ali Orqanına təqdim edir.

Ali Orqan daxil olan şikayət üzrə ən geci iki iclas ərzində qərar qəbul etməlidir. Qərarın layihəsi İcraçı katib tərəfindən hazırlanır və Ali Orqanın iclasda iştirak edən üzvlərinə göndərilir. Onlar müəyyən müddət ərzində layihədə «düzəliş» edə bilərlər. Yalnız bundan sonra qərarın son variantı tərtib edilərək bütün mətbuat orqanlarına və əlaqədar şəxslərə (şikayətçi və cavabdehə) göndərilir.

Haqqında şikayət verilən tərəf və ya şikayətçi aldığı qərarla razı olmadığı təqdirdə Şuraya müraciət edə bilər. Mətbuat Şurasının sədri, sədr müavini və ya İcraçı katib bu müraciət əsasında təqdimat hazırlayaraq onu Ali Orqanın müzakirəsinə çıxarır. Həmin təqdimatın araşdırıldığı iclasda iştirak edənlərin ən azı üçdə iki səs çoxluğu ilə yeni qərar qəbul edilərsə, əvvəlki qətnamə öz qüvvəsini itirmiş hesab olunur.

Şuraya şikayət daxil olan andan onun araşdırılması ilə bağlı bütün işlər, yazışmalar və görüşlər qapalı aparılır. MŞAO-nın qərarları da İcraçı katib onlar barədə mətbuata açıqlama verməyincə gizli saxlanır.

Türkiyənin Mətbuat Şurası 1992-ci ildən bəri fəaliyyətdə olan Dünya Mətbuat Şuraları Assosiasiyasının (World Association of Press Councils) (WAPC) yaradıcılarındandır. Türkiyə Mətbuat Şurasının sədri bu Assosiasiyanın İdarə Heyətinin üzvü və onun sədrinin yardımçısıdır.

Mətbuat Şurasının gəlirlərini Şuraya üzv olan jurnalistlər, qəzetlər, jurnallar, informasiya agentlikləri, radio və TV kanalları, mətbuat təşkilatlarının Şuranın Nizamnaməsində göstərilən ölçüdə və qaydada ödədikləri üzvlük haqları təşkil edir. Nadir hallarda Şura «ianə» də qəbul edir. Şuranın bütün gəlir və xərcləri istənilən nəzarət üçün açıqdır.

Şuranın bir İcraçı katibi və onun tabeçiliyində olan Bürosu vardır. Şuranın xərcləri yalnız İcraçı katibin və Büroda çalışanların əmək haqlarından, habelə təşkilatın birbaşa məsrəflərindən ibarətdir. MŞAO-nın üzvləri maaş və ya qonorar almır, yalnız ictimai əsaslarla çalışırlar.

*Əlavələr*

## AZƏRBAYCAN JURNALİSTLƏRİNİN PEŞƏ ETİKASI KODEKSİ

Azərbaycan jurnalistləri özlərinin başlıca vəzifələrini həqiqətə xidmət etməkdə, cəmiyyətin informasiyaya olan tələbatını tam həcmdə ödəməkdə görürlər. Kütləvi informasiya vasitələri konstitusiyanın onlara verdiyi mandata və informasiya toplayaraq yaymaq hüququna əsaslanaraq, yalnız həqiqi məlumatları yaymalı, ictimai diskussiyaların aparılmasına tam şərait yaratmalıdırlar. Biz inanırıq ki, cəmiyyətin maarifləndirilməsi - ictimai ədalətin bərqərar olmasının əsas şərtidir.

Sadalanan vəzifələr və mətbuat azadlığının verdiyi geniş hüquqlardan istifadə jurnalistlərin üzərinə bu vəzifə və hüquqları obyektiv, dəqiq və qərəzsiz surətdə həyata keçirmək kimi böyük məsuliyyət qoyur. Bu məsuliyyəti dərk edən, peşə ləyaqətini, oxucu və ya tamaşaçılarının etibarını, təmsil etdiyi informasiya orqanının reputasiyasını yüksək tutan hər bir jurnalist öz vəzifəsinin icrası zamanı peşə standartlarını qorumalıdır.

Yuxarıda deyilənləri nəzərə alaraq, həmçinin Azərbaycan Respublikasının Konstitusiyasında, İnsan hüquqları haqqında Avropa Konvensiyasında və Avropa Şurası Parlament Assambleyasının "Jurnalist etikası haqqın-da" qətnaməsində öz əksini tapmış prinsiplərə uyqun olaraq, biz Azərbaycan jurnalistlərinin Etika Kodeksini qəbul edirik:

### PRİNSİP 1.
**Həqiqətə xidmət, dəqiqlik və obyektivlik**

1.1. Jurnalistikanın ali məqsədi - həqiqətdir, obyektivlik isə jurnalistlərin əsas professionallıq meyarıdır. Jurnalist heç bir fakt və fikri saxtalaşdırmamalı və ya qəsdən təhrif





olunmuş şəkildə təsvir etməməlidir.

1.2. Jurnalist tənqid obyektinin baxışlarını öyrənməli, mümkün qədər onun da məsələyə münasibətini işıqlandırmalıdır. Plüralizm prinsipinə əməl edərək, o, ictimai əhəmiyyət kəsb edən məsələlərə dair bir-birindən asılı olmayan müxtəlif şəxslərin mövqeyini təqdim etməlidir. Bu, xüsusilə kütləvi informasiya vasitəsinin aktual, yaxud münaqişəli mövzularda çıxış etdiyi hallara aiddir.

1.3. Xəbərlə şərh və ya müəllifin mövqeyi bir-birinə qarışdırılmamalıdır. Xəbər verən zaman müəllif şəxsi mövqeyini ifadə etməməli, müxtəlif nöqteyi-nəzərləri qərəzsiz şəkildə işıqlandırmalıdır. Öz şəxsi mövqeyini və fikirlərini ifadə edərkən jurnalist bunu elə etməlidir ki, oxucu, dinləyici, yaxud tamaşaçı onu xəbərdən ayıra bilsin, bunun məhz jurnalistin şərhi və ya mövqeyi olduğunu dərhal anlasın.

### PRİNSİP 2.
**İnformasiya mənbələrinə münasibət**

2.1. Təşkilatların, partiyaların, cəmiyyətlərin, birliklərin və hər hansı digər maraqlı qrupların rəsmi məlumatları yayılarkən mənbə mütləq göstərilməlidir. Bütün digər hallarda jurnalist informasiya verən orqandan və ya şəxsdən icazə alaraq, ona istinad etməli, məlumatın haradan alındığını bildirməlidir. Lakin əgər məlumat verən şəxs adının gizli saxlanılması şərti irəli sürürsə, jurnalist və informasiya orqanı bu şərtə mütləq əməl etməlidir. Konfidensial informasiya mənbəyi açıqlanmamalıdır.

2.2. Qeyri-rəsmi mənbələrin informasiyası onların həqiqətə uyqunluğu və informativ dəyəri lazımi qaydada yoxlanılmadan yayılmamalıdır. İnformasiya çapa hazırlanarkən onun mənası təhrif olunmamalıdır. Başqa mətndən və ya çıxışdan sitat gətirərkən jurnalist həmin sitatın harada başlandığını və bitdiyini dəqiq bildirməlidir. Foto-simvolların (illüstrasiya, fotomontaj və s.) dərci zamanı şəklin sənədli xarakter daşımadığı qeyd olunmalıdır. Məqalənin başlıqları onun məzmununa cavab verməlidir.

2.3. Jurnalist çalışmalıdır ki, götürdüyü intervü müsa-

hibi və ya onun vəkil etdiyi şəxs tərəfindən imzalansın. Buna imkan olmadıqda, jurnalist intervünün çapa hazırlanması və dərc olunması şərtlərini əvvəlcədən müsahibinə bildirməlidir.

2.4. Hər hansı sorğunun nəticələri dərc olunarkən bu sorğunu sifariş verən və keçirən təşkilat, həmçinin keçirildiyi vaxt, respondentlərin sayı, onlara verilən suallar da çap olunmalıdır. Əgər sorğunun konkret sifarişçisi yoxdursa, bu zaman onun hansı ictimai rəyin öyrənilməsi institutunun təşəbbüsü ilə keçirildiyi qeyd olunmalıdır.

## PRİNSİP 3.
### Peşə ləyaqəti və həmrəyliyi

3.1. Hədiyyələr, pulsuz xidmətlər həm jurnalistlərin, həm də onların təmsil etdikləri informasiya orqanlarının nüfuzuna xələl gətirə bilər. Odur ki, jurnalist peşə fəaliyyəti ilə əlaqədar ünsiyyətdə olduğu heç kimdən qiymətli hədiyyə, yaxud pulsuz xidmət almamalıdır. Jurnalist redaksiya sənədindən özünə hər hansı formada imtiyaz əldə etmək üçün (dövlətin və jurnalist birliklərinin verdikləri imtiyazlar istisna olmaqla) istifadə etməməli, şantaja yol verməməlidir.

3.2. Jurnalist redaksiyada çalışdığı vaxtda onun və ya işlədiyi informasiya orqanının reputasiyasına kölgə sala, obyektivliyinə inamı azalda bilən hər hansı başqa işlə məşqul olmaqdan, vəzifə tutmaqdan, siyasi təşkilatların fəaliyyətində iştirak etməkdən çəkinməlidir. Cəmiyyət qarşısında məsuliyyətini nəzərə alaraq, jurnalist elə davranmalıdır ki, maraqların münaqişəsinə yol verməsin.

3.3. Plagiat şərəfsiz və tamamilə yolverilməz hərəkətdir.

3.4. Jurnalistlər həmkarlarının fiziki və mənəvi təzyiqlərə, tənqidə görə təqibə məruz qaldıqları zaman həmrəylik nümayiş etdirməlidirlər.

3.5. Jurnalist birlikləri, redaksiyalar və jurnalistlər kütləvi informasiya vasitələrindən bir-birləri ilə haqq-hesab çəkmək, bir-birləri əleyhinə təbliqat aparmaq üçün istifadə etməməlidirlər. Bu, onların özlərinə də, bütövlükdə Azərbaycan jurnalistikasının nüfuzuna da zərbə vurur.





3.6. Yalnız kütləvi informasiya vasitələri deyil, jurnalistlər də azad olmalıdır. Redaksiya tapşırığı qanunlara və peşə əxlaqına zidd olduqda jurnalistin həmin tapşırıqdan imtina etmək hüququ vardır. Redaktə zamanı jurnalistin fikirləri və ya hazırladığı materialın mənası təhrif olunmuşdursa, jurnalist həmin materialın onun imzası ilə verilməsindən imtina edə bilər.

3.7. Redaksiya sirri Azərbaycan Respublikasının qanunlarının və bu Kodeksin pozulması ilə bağlı deyilsə də, jurnalist həmin sirri qorumağa borcludur.

3.8. Jurnalist hazırladığı materialı işlədiyi kütləvi informasiya vasitəsinin rəhbərliyi ilə razılaşdırmadan başqa kütləvi informasiya vasitəsinə təklif edə bilməz.

## PRİNSİP 4.
### Şərəf və ləyaqətin qorunması, şəxsi həyatın toxunulmazlığı

4.1. Jurnalist adamları milli, irqi, cinsi mənsubiyyətinə görə, dilinə, peşəsinə, dinə münasibətinə, yaşadığı və ya anadan olduğu inzibati əraziyə görə pisləməməli, xüsusi ehtiyac olmadan onların bu keyfiyyətlərini qabartmaqdan çəkinməli, insanları siyasi baxışlarına görə təhqir etməməlidir.

4.2. Jurnalist görüşdüyü, haqqında yazdığı və ya veriliş hazırladığı hər bir şəxsin şərəf və ləyaqətinə, şəxsi həyatının toxunulmazlığı prinsipinə hörmətlə yanaşmalıdır.

4.3. Jurnalist vətəndaşların şəxsi həyatına aid məlumatları, bu məlumatlar cəmiyyətin maraqlarına toxunmursa və vacib ictimai əhəmiyyət kəsb etmirsə, onların razılıqı olmadan yaya bilməz.

4.4. Kütləvi informasiya vasitələri tənqid olunan, haqqında şərəf və ləyaqətinə toxunan məlumat yayılmış şəxslərə cavab məqaləsi ilə çıxış etmək imkanı verməlidirlər.

4.5. Jurnalist və kütləvi informasiya vasitəsi buraxdığı səhvi, həmin səhvin kimin tərəfindən müəyyən edilməsindən asılı olmayaraq, maksimum qısa müddətdə və tam həcmdə aradan qaldırılmalıdır. Düzəliş verilərkən aydın olmalıdır ki, əvvəl verilən məlumat qismən və ya hansısa bir hissədə, yoxsa

tamamilə səhvdir. Bu zaman real vəziyyət mütləq ictimaiyyətə çatdırılmalıdır.

4.6. Şəxsi xarakter daşıyan məktublar dərc edilərkən onların müəllifindən və ya ünvanlandığı şəxsdən, yaxud da onların varislərindən icazə alınmalıdır.

4.7. Bədbəxt hadisələr və ya cinayət nəticəsində zərər çəkmiş şəxslərin razılığı olmadan onların adları açıqlanmamalı, şəkilləri verilməməlidir. Bu zaman yalnız zərərçəkənin ictimai xadim olduğu, habelə hadisənin xüsusi məqamlara malik olduğu hallar istisna edilir. Əgər cinayət yeniyetmələr və ya uşaqlar tərəfindən törədilmişsə, bu zaman da cinayətkarın adını açıqlamaqdan və şəklini yaymaqdan çəkinmək lazımdır (xüsusi hallar istisna olunmaqla).

4.8. Haqqında məhkəmənin qərarı olmayan hər bir şübhəli şəxsə münasibətdə günahsızlıq prezumpsiyası prinsipi gözlənilir. Heç kim məhkəmənin qərarı olmadan cinayətkar adlandırıla bilməz.

4.9. Cinayətdə şübhəli bilinən şəxsin tam adının və şəklinin dərci yalnız o hallarda mümkündür ki, bu, cinayətin açılmasına kömək edə bilər və ya şübhəli bilinən şəxs artıq həbs olunub, yaxud da törədilən cinayətlə şübhəli şəxsin tutduğu vəzifə arasında əlaqə var.

4.10. Əgər kütləvi informasiya vasitəsi hər hansı vətəndaşın şübhəli şəxs kimi həbs olunması, yaxud istintaqa cəlb edilməsi barədə mə`lumat yaymışsa və sonradan vətəndaşın günahsızlığı sübuta yetmişsə, həmin informasiya orqanı bu barədə mütləq xəbər verməlidir.

**PRİNSİP 5.**
**Öhdəçilik və məsuliyyət**

Jurnalistlər yuxarıda sadalanan professional standartların pozulmasına yol verməməli və həmkarlarından da bunu tələb etməlidirlər. Professional davranış kodeksinə əməl edilməsi Azərbaycanda ictimaiyyətin jurnalistlərə inam və hörmətini təmin etməlidir. Hər bir şəxs bu kodeksə istinad edərək mətbuatın hərəkətlərindən Mətbuat Şurasına şikayət edə bilər. Mətbuat Şurasının əsasnaməsi bir ay ərzində hazırlanıb bu Kodeksi imzalamış kütləvi informasiya vasitələrinin təsdiqinə verilməlidir.





*Əlavələr*

# MƏTBUAT ŞURASININ YARADILMASINA DAİR DƏYİRMİ MASANIN

# PROTOKOLUNDAN ÇIXARIŞ

Bakı şəhəri
23 aprel 2002-ci il

**İştirak edirlər:**
63 kütləvi informasiya vasitələrinin və jurnalist təşkilatının rəhbərləri

**Gündəlikdə duran məsələ:**
1. Mətbuat Şurasının cəmiyyətdə rolu və ictimai münasibətlərdəki yeri.
2. Azərbaycan mətbuatının hazırki durumu və Mətbuat Şurasının yaradılmasının bu duruma təsiri.
3. Mətbuat Şurasının əsas məqsəd və fəaliyyət prinsipləri.
4. Azərbayjanın Milli Mətbuat Şurasının təsisçilərinin müəyyən olunması.

**Dinlənildi:**

Gündəlikdə duran məsələ barədə yığıncağa sədrilik edən Arif Əliyev məlumat verdi.O qeyd etdi ki, Mətbuat Şurası Azərbaycanın çap kütləvi informasiya vasitələrinin mənafe ümumiliyi, könüllülük, üzvlərin hüquq bərabərliyi, özünüidarə əsasında yaradılacaq təşkilatdır. Sonra o, yeni ijtimai birliyin yaradılması mərhələsində nəzərdə tutulan tədbirlərlə yığıncaq iştirakçılarını tanış etdi.

Zaur Əliyev layihənin rəhbəri kimi yığıncaq iştirakçılarına dünya Mətbuat şuralarının strukturu və onların iş prinsipləri barədə məlumat verdi və layihənin uğurla həyata keçirilməsi üçün bu işdə yığıncaq iştirakçılarını yaxından iştirak etməyə çağırdı. Zaur Əliyev bidirdi ki, birinci Dəyirmi masanın qarşısında dayanan başlıca məsələ Mətbuat Şurasının təsisçilərinin kim olacağını müəyyənləşdirməkdir.

**Çıxış etdilər:**

1. Jahangir Məmmədli
2. Rəşad Məcid
3. İlqar Əlfioğlu
4. Rauf Arifoğlu
5. Rauf Talışinski
6. Azər Həsrət
7. Şeyda Nəsibli
8. Əli Əliyev
9. Sahib Alıyev

və başqaları

Onlar Milli Mətbuat Şurasının yaradılması barədə layihə iştirakçıları tərəfindən edilmiş təklifi bəyəndiklərini bildirdilər və gələjəkdə Şuranın yaradılması ilə bağlı öz təkliflərini söylədilər.

**Qərara alındı:**

Mətbuat Şurasının təsisçiləri kütləvi informasiya vasitələri və jurnalist təşkilatları olsunlar.

**Lehinə - 63 nəfər**
**Əlehinə - 0 nəfər**

| | |
|---|---|
| **Sədr:** | **Arif Əliyev** |
| **Katib:** | **Ramil Həsənov** |

***Kompüter dizaynı:*** İsazadə Kamran

***Korrektor:*** Ş.Sərkəroğlu

Format 60x84, 1/16 4,5 ç.v Tiraj 1000 nüsxə.
Kitab "Yeni Nəsil" Məhdud Məsuliyyətli
Cəmiyyətdə çap olunub.
Kitab pulsuz yayılır